www.iqtisadiyyat.com

№ 20 (1015) 17-23 may 2018-ci il

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Naxçıvan dinamik inkişaf yolundadır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə eni 1,3 metr, hündürlüyü 2 metr, uzunluğu 134 metr olan qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7 min 500 kubmetr olan bir ədəd, cəmi tutumu 27 min 500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək diametri 900 millimetrdən 630 millimetrə qədər olan borularla 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıb.

Layihə ərazisində diametri 560 millimetrdən 63 millimetrə qədər plastik borularla 59,4 kilometr içməli su xətti çəkilib, 2500 ev su şəbəkəsinə qoşularaq sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arasında təzyiqlə verilir. Şərur şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər olan borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Bununla da Şərur şəhərində, Mahmudkənd kəndində və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin ediləcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib. 2003-cü il avqustun 26-da Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlayan bu təhsil ocağı ötən dövrdə öz fəaliyyətini genişləndirib, ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. Ötən dövrdə institut ixtisaslı müəllim kadrları ilə də təmin olunub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Bütün bunlar Azərbaycan ali təhsilinin yeni inkişaf mərhələsinin göstəriciləridir. Dövlətimizin başçısının Azərbaycanın ali təhsil müəssisələrinin dünyanın inkişaf etmiş ali təhsil məkanına inteqrasiyasının təmin olunması ilə bağlı tədbirləri bu sahədə yeni keyfiyyət dəyişikliyinin əldə olunmasına şərait yaradıb.

Naxçıvan Müəllimlər İnstitutunun yeni binasında yaradılan şərait bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada da böyük işlər görülüb. Bütün bunlar Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.

**Son illərdə ölkəmizin ərazisində yeni kollektor və xətlərin, tullantı sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin yenidən qurulması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası sayəsində bu sahədə də əhəmiyyətli nəticələr əldə olunub. Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illərdə Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin yaradılması istiqamətində görülən işlər bunu deməyə əsas verir. Bu layihə bir tərəfdən ekoloji sahədə görülən tədbirləri əks etdirir, digər tərəfdən də yeni infrastruktur layihələrinin səmərəli istifadəsi üçün geniş imkanlar açır.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə məlumat vermiş, bildirmişdir ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada, həmçinin iri tullantı tutucu, qum və yağ tutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. Qurğunun xidmət sahəsi Naxçıvan şəhəri, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Hacıniyyət, Tumbul, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini əhatə edir. Layihənin icrası nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mayın 16-da Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub.

Sərhəd Dəstəsinin texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanması üçün qaraj da tikilib. Ərazidə kinoloji xidmət üçün 7 yerlik və atlar üçün 12 yerlik sahələr yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Burada hərbçilərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olub.

Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, Əsgəri-Məişət Kompleksi, Təlim-Tədris Mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıb.

Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir.

Ümumi sahəsi 7500 kvadratmetr olan üçmərtəbəli binada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışını etmiş, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Neft Azərbaycanın milli sərvətidir" deyimi yeni yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində başqa bir modeldə həqiqətə çevrildi. Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı "Qara qızılı insan kapitalına çevirmək" mesajı 2003-cü ildən başlayaraq dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Çünki müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsildəki nailiyyətlər göz qabağındadır. Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

## Bakıda keçirilən sərgiyə dünyanın 34 ölkəsindən 402 şirkət qatıldı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018", XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya "Ipack Caspian 2018" sərgiləri ilə tanış olub.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına sərgilərlə bağlı məlumat vermişdir.

Bildirilmişdir ki, ötən illə müqayisədə bu il "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib və region üzrə bütün ixtisaslaşmış sərgilər arasında ikinci yeri tutur.

Bakı Ekspo Mərkəzinin iki zalında və xarici meydançasında yerləşən sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edirlər. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplar ilə iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edir.

Prezident İlham Əliyev sərgilərdə nümayiş olunan stendlərə baxmışdır.



# Həsən bəy Ağayev



AĞAYEV Həsən bəy Məşədi Hüseyn oğlu (1875, Gəncə - 19.7.1920. Tiflis) – görkəmli ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. Orta təhsilini Gəncədəki klassik gimnaziyada almışdır. Hacı Zeynalabdin Tağıyevin maddi köməkliyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş və 1901-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Həsən bəy Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet və jurnallarda məqalələr də dərc etdirmişdir. "Hümmət" təşkilatının tapşırığı ilə Azərbaycan dilinə tərcümə etdiyi "Silk, sinif, firqə" kitabçası Tiflisdə Cəlil Məmmədquluzadənin "Qeyrət" mətbəəsində çap olunmuşdur (1906). Həmin kitabçanın nəşrinə görə təqiblərə məruz qalan Ağayev İrana mühacirət edərək, bir müddət orada yaşamışdır. Mühacirətdən qayıtdıqdan sonra Gəncədə rus dilində çıxan "Yujnıy Kavkaz" qəzetinin redaktoru, müsəlmanlar arasında maarifçiliyi yayan cəmiyyətin rəhbəri olmuşdur. 1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır. 1917-ci ildə Rusiyada baş vermiş Fevral demokratik inqilabı Azərbaycanın digər görkəmli ictimai-siyasi xadimləri kimi, Ağayevin də sonrakı həyat və fəaliyyətində həlledici rol oynamışdır. Yeni şəraitdə Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılmış "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın yaradıcılarından biri də Həsən bəy idi. Həsən Ağayev 1917-ci ilin aprelində Bakıda çağırılmış Qafqaz əlmanları qurultayında iştirak etmiş və Rusiya daxilində Azərbaycana muxtariyyət verilməsinin ardıcıl tərəfdarlarından olmuşdur. 1917-ci ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə Nəsib bəy Yusifbəylinin "Türk Ədəmi-Mərkəziyyət Partiyası" birləşərək, "Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası adlandırılmışdır. "Müsavat"ın 1917-ci il oktyabrın 26-31-də keçirilmiş birinci qurultayında Həsən bəy partiyanın mərkəzi komitəsinin üzvü, ilin axırlarında isə Ümumrusiya Müəssislər məclisinə nümayəndə seçilmişdir. Rusiyada oktyabr çevrilişi ilə əlaqədar olaraq Cənubi Qafqazdan Ümumrusiya Müəssislər məclisinə seçilmiş nümayəndələr onun iclasına gedə bilməmiş, 1918-ci il fevralın 10-da Tiflisdə toplaşaraq Cənubi Qafqazda ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini yaratmış, aprelin 22-də isə Cənubi Qafqazın suverenliyini elan edərək, Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətini yaratmışdılar. Zaqafqaziya seymində Müsəlman fraksiyasının üzvü olan Həsən bəy bütün tədbirlərdə fəal iştirak etmişdir. Zaqafqaziya seymi və hökuməti bu ərazidə yaşayan millətlərin milli maraqlarına cavab vermədiyindən həmin il mayın 25-də buraxılmışdı. Mayın 27-də Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etmiş və Şuranın rəyasət heyətini seçmişdi. Bu vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə Şuranın sədri, Həsən bəy Ağayev isə onun müavini seçilmişdilər.

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçmüşdür. İyunun 17-də burada keçirilən ilk iclasında Milli Şura yaranmış vəziyyətlə əlaqədar olaraq, fəaliyyətini müvəqqəti olaraq dayandırmış, bütün hakimiyyəti yeni yaradılmış hökumətə vermişdir. Azərbaycan Parlamentinin 1918-ci il dekabrın 7-də Bakıda təntənəli açılışına qədər Həsən bəy Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi vəzifəsində çalışmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasında Həsən bəy Parlament sədrinin birinci müavini seçilmişdir. Parlamentin sədri seçilmiş Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından ona rəhbərliyi Həsən bəy həyata keçirmişdir. O, 1919-cu ilin dekabrında yenidən Parlament sədrinin birinci müavini seçilmiş və 1920-ci il fevralın 2-nə qədər ona rəhbərlik etmişdir. Həsən bəyin bilavasitə təşəbbüsü və fəal iştirakı ilə Parlament bir sıra mühüm qanunvericilik aktları qəbul etmişdir. Azərbaycan Parlamentinə rəhbərliyi zamanı Həsən bəyin yüksək təşkilatçılıq qabiliyyəti, dərin biliyi, insanlarla həssas münasibəti təkcə Parlament daxilində deyil, sadə xalq arasında da ona böyük hörmət və nüfuz qazandırmışdır. Vəzifəsindən istefa verərkən, mühüm xidmətləri nəzərə alınaraq, bütün Parlament üzvlərinin imzası ilə ona təşəkkür elan edilmişdir.

Aprel işğalından (1920) sonra Tiflisə mühacirət edən Həsən bəy Ağayev həmin il iyulun 19-da muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Tiflisin müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

Əd.: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stetnoqrafik hesabatlar), c.1-2, B., 1998; Məmmədzadə M., Doktor Həsən bəy, "Azəri türkü" məcmuəsi, 1928, № 3; Əliyev M., Həsən bəy Ağayev, "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920)" kitabında, B., 1990; İsayev Ə., Qeyrət və hünər tarixi, "Azərbaycan" qəzeti, 2003, 22 may.

# Cari ildə 18 milyon dollarlıq kimya sənayesi məhsulları ixrac edilib

Bu ilin ilk dörd ayında Azərbaycandan 38 min 41 ton kimya sənayesi məhsulları ixrac edilib. Yanvar-aprel aylarında ixrac edilən kimya sənayesi məhsullarının dəyəri 18 milyon 390 min ABŞ dolları olub.

Bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb.

Keçən ilin yanvar-aprel aylarında ölkədən 44 min 140 ton kimya sənayesi məhsulları ixrac olunub, ixracın dəyəri isə 14 mln. 434 min dollar təşkil edib.




# Azərbaycandan elektrik enerjisinin ixracı 2,5 dəfədən çox artıb

Cari ilin yanvar-aprel aylarında Azərbaycandan 987 mln. 949 min kilovat/saat elektrik enerjisi ixrac olunub.

Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib ki, ötən 4 ayda ixrac olunan elektrik enerjisinin dəyəri 47 mln. 303 min ABŞ dolları təşkil edib.

Xatırladaq ki, 2017-ci ilin müvafiq dövründə ölkədən 387 mln. 406 min kilovat/saat elektrik enerjisi ixrac edilib, ixracın dəyəri isə 16 mln. 535 min dollar olub.

Beləliklə də, bu ilin yanvar-aprel aylarında Azərbaycandan elektrik enerjisinin ixracı keçən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfədən çox artıb.

# Azərbaycandan təbii qaz ixracı artıb



Bu ilin yanvar-aprel aylarında Azərbaycandan 1 milyard 893 milyon 203 min kubmetr təbii qaz ixrac olunub.

Dövlət Gömrük Komitəsindən (DGK) verilən məlumata görə, dörd ayda ixrac olunan təbii qazın dəyəri 342 milyon 922 min ABŞ dolları təşkil edib.

Keçən ilin müvafiq dövründə ölkədən 1 milyard 705 milyon 122 min kubmetr təbii qaz ixrac edilib, həmin ixracın dəyəri isə 276 milyon 201 min dollar olub.

# Niderland Azərbaycanda kənd təsərrüfatı və qida məhsullarının təhlükəsizliyi ilə bağlı layihələrdə iştirak edəcək



Mayın 15-də Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli Avropa Şurası Parlament Assambleyasının fəxri prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindenin başçılıq etdiyi Niderland Krallığının kənd təsərrüfatı və biznes üzrə nümayəndə heyəti ilə görüşüb.

Bu barədə agentliyin Kommunikasiya və informasiya texnologiyaları şöbəsindən açıqlama verilib.

Q.Təhməzli Azərbaycan və Niderland Krallığı arasında əməkdaşlığın inkişaf etdiyini, əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və keçirilən görüşlərin mühüm əhəmiyyətini vurğulayıb.

Sədr yeni yaradılan Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti və gələcəkdə həyata keçiriləcək tədbirlərlə bağlı qonaqlara məlumat verib, Azərbaycan ilə Niderland Krallığı arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsinin inkişaf etdirilməsinə böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Niderland Krallığının nümayəndə heyəti Azərbaycanda kənd təsərrüfatı və qida məhsullarının təhlükəsizliyi, habelə bu istiqamətdə reallaşdırılacaq layihələrdə iştirak etməyə hazır olduqlarını ifadə ediblər.

Qeyd olunub ki, bu ilin fevral ayında Bakıda səfərdə olan nümayəndə heyəti ADA və Vageningen universitetlərinin birgə təşkil etdiyi "SARA" adlı tədqiqat işini təqdim edib.

# Vali: Astara-Astara dəmir yolu İran və Azərbaycanın sərhədyanı bölgələrinin iqtisadi inkişafına təkan verəcək



Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti iki ölkəni birləşdirməklə yanaşı, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin də əsas hissəsini təşkil edir.

Bu sözləri İranın Gilan Vilayətinin valisi Mustafa Salari dövlət televiziyasına müsahibəsində deyib.

Onun sözlərinə görə, İran ilə Azərbaycanı birləşdirən dəmir yolu xəttindən həm beynəlxalq yükdaşımalar üçün, həm də iki ölkə arasındakı iqtisadi əlaqələrin genişlənməsi üçün istifadə olunacaq. Gilan vilayəti kənd təsərrüfatı istehsalına görə İranın aparıcı bölgəsidir. Burada istehsal olunan sitrus meyvələr, çəltik və başqa məhsullar Azərbaycan üzərindən Rusiya və Avropa ölkələrinə ixrac edilir. Bu yol hər iki ölkənin sərhədyanı bölgələrinin də iqtisadi inkişafına təkan verəcək.

Ötən illərə nisbətən cari ildə ixrac əməliyyatlarının artacağını bildirən M.Salari hər iki dövlətin gəlirlərinin çoxalacağını qeyd edib.

Vali nəzərə çatdırıb ki, İran ilə Azərbaycanın müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin genişlənməsi dövlətlərin və xalqların maraqlarını əks etdirir.

# Yaşıl iqtisadiyyat 24 milyon iş yeri yaratmağa kömək edəcək

Ekoloji cəhətdən təmiz iqtisadiyyata keçməyə, qlobal istiləşməni Selsi ilə iki dərəcə civarında saxlamağa dair tədbirlər 2010-cu ilə qədər 24 milyon yeni iş yeri yaratmağa imkan verəcək. Bu, əmək bazarında iqtisadiyyatın "yaşıllaşması" ilə bağlı mümkün ixtisarları kompensasiya edəcək. Beynəlxalq Əmək Təşkilatının (BƏT) təqdim etdiyi məruzənin müəllifləri bu qənaətə gəliblər.



Məruzə müəllifləri, mələsən, itkilərlə üzləşməsi ehtimal olunan neft və ya kömür sənayelərində çalışan insanların sosial müdafiəsini təmin etməyi məsləhət görürlər. Yeni yerlər enerji sektorunda dəyişikliklər, o cümlədən elektromobillərə keçilməsi, binaların enerji səmərəliliyinin artırılması sayəsində yaradıla bilər. Havanın, suyun və torpağın təmizlənməsi, habelə ekstremal hava hadisələrindən müdafiə sahələrində işçilərə ehtiyac yarana bilər. Bütün bu proseslər dayanıqlı kənd təsərrüfatına keçmək planının bir hissəsidir. Hazırda iqtisadiyyatın bu seqmentində 1,2 milyon insan məşğuldur.

BƏT-in baş direktorunun müavini Debora Qrinfild deyib: "Yaşıl iqtisadiyyat milyonlarla insanın yoxsulluqdan qurtarmasına kömək etməyə, planetimizin sakinlərinin çoxunun və gələcək nəsillərin həyatını yaxşılaşdırmağa qadirdir. Bu, çox müsbət zəmindir".

"Yaşıl" əmək bazarında ən böyük artımın Asiyada baş verəcəyi ehtimal olunur. Burada 14 milyon iş yerinin yaradılması gözlənilir. BƏT ekspertlərinin fikrincə, Avropa bazarı əlavə 2 milyon iş yeri yarada bilər.

Enerji daşıyıcılarından asılı olan Afrika və Yaxın Şərq ölkələri öz iqtisadiyyatlarında islahatlar aparmasalar, iş yerlərinin azalması ilə üzləşə bilərlər. Məruzə müəllifləri bütün dünya ölkələrini əhalini ekoloji cəhətdən təmiz istehsala keçməyə hazırlamağa çağırırlar.

Tədqiqatçılar iqtisadiyyatın 163 sahəsi üzrə məlumatları təhlil ediblər. Məlum olub ki, onların 14-ü təqribən 10 min iş yeri itirə bilər. Neft hasilatı və emalı sektorlarında təqribən 1 milyon əməkdaşın ixtisara salınacağı ehtimal olunur.

Məruzə müəllifləri əhalinin sosial müdafiəsi üzrə tədbirlərlə innovasiyaların təbiqini uzlaşdırmağa çağırırlar. Bu, iqtisadiyyatın problemli sahələrində məşğul olan insanları dəstəkləməklə bərabər, dayanıqlı təsərrüfat işlərinə keçidi təmin etməyə də imkan verər.

# Bu il Azərbaycandan 9,3 milyon ton neft və neft məhsulları göndərilib

Cari ilin yanvar-aprel aylarında Azərbaycandan 9 milyon 338 min 941 ton xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları ixrac edilib. Dörd ayda ixrac edilən neft və neft məhsullarının dəyəri isə 4 milyard 631 milyon 311 min ABŞ dolları olub.

Bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb.

Xatırladaq ki, 2017-ci ilin yanvar-aprel aylarında Azərbaycandan 6 milyon 493 min 465 ton xam neft ixrac olunub, ixrac edilən xam neftin dəyəri 2 milyard 616 milyon 375 min dollar təşkil edib.

# Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak etmişlər.

Dövlət başçısı mərasimdə nitq söyləmişdir.

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən:**

"Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.

Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yəni, 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi.

Sonralar Heydər Əliyev Moskvada yüksək vəzifə - Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrində çalışdığı illərdə də daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. O dövrdə Ulu Öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram var, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya qayıtmış, o ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.



2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir".

* * *

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Xalq Artisti, Dövlət Mükafatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri laureatı Rauf Abdullayevə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının "Dostluq" və "Şöhrət" ordenləri ilə təltif olunmuş Mixail Qusmana, Azərbaycan kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının Xalq Artisti, "Şöhrət" və "Şərəf" ordenli Eldar Quliyevə "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etmişdir.

## Yeni Bakı Limanı ölkəmizin nəqliyyat potensialının möhkəmləndirilməsində önəmli rol oynayacaqdır



Prezident İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Son dövrlərdə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli işlər görülür, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan, dövlətimizin başçısının Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, bu liman birinci kateqoriya limanlar üçün müəyyən edilmiş texniki tələblərə uyğun layihələndirilib və inşa olunub.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncama əsasən başlanılıb. 2010-cu ilin noyabrında dövlətimizin başçısının iştirakı ilə yeni liman kompleksinin təməli qoyulub. 2014-cü ilin sentyabrında liman qurğularından biri – iki körpüdən ibarət bərə terminalı, bu ilin yanvarında isə iki körpüdən ibarət olan Ro-Ro terminalı istifadəyə verilib. Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır.

Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edəcək. Bu kompleks Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəqlini təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı limanın əməkdaşları və inşaat şirkətlərinin nümayəndələri ilə görüşmüş, çıxış etmişdir.



## Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var

Mayın 15-də Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat vermişdir. O, qeyd etmişdir ki, 2001-ci ildən fəaliyyət göstərən Müasir Təhsil Kompleksi Azərbaycanın ilk özəl təhsil müəssisələrindən biridir. Son illərdə bu təhsil ocağına maraq artıb və nəticədə məktəbə gələn şagirdlərin sayında da böyük artım olub.

Bu da, təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi artıq zərurətə çevrilib. Buna görə də məktəb üçün əvvəlkindən daha böyük, müasir və dünya standartlarına uyğun yeni bina inşa edilib.

Kompleksdə müasir tələblərə cavab verən yüksəkkeyfiyyətli maddi-texniki baza yaradılıb. Heydər Əliyev adına Müasir Təhsil Kompleksi indi paytaxtımızın memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlətimizin başçısı və birinci xanım təhsil ocağında yaradılan şəraitlə tanış olmuşlar.

# "Mühasibat uçotu və təhlil"in aparıcı alimlərindən biri

*Mühasibat uçotu iqtisad elminin mühüm istiqamətlərindən biridir. Dünyanın bütün ölkələrində mühasib kadrlara həmişə ehtiyac olub. Çünki onların fəaliyyətinin əsas məqsədini uçotun səmərəli təşkili, iqtisadi təhlilin aparılması təşkil edir. Düzgün uçot iqtisadi fəaliyyətin normal olması üçün əsas şərtlərdən biridir. Düzgün uçot, eyni zamanda, şəffaflıq, baş verən iqtisadi proseslərin obyektiv qiymətləndirilməsi və bu qiymətləndirmə əsasında idarəetmənin daha səmərəli olmasına xidmət edən qərarlar qəbul edilməsi deməkdir. Qəzənfər müəllim ömrünü bu problemə - mühasibat uçotunun tədrisinə və onun elmi araşdırılmasına həsr etmişdir. Qəzənfər müəllim bu sahənin ən hörmətli və sanballı alimlərindən biridir. İqtisadçı-mühasib dünən də, bu gün də peşələr içərisində çox hörmətli bir peşə hesab olunur.*

İnsan həyatı zirvələrin belinə dolanan cığırlara bənzəyir. Bu cığırlar gedənlərdən cəsarət, mətinlik tələb edir. Bəzən onlar uzaqlarda görünən əlçatmaz, ünyetməz zirvələrə baxanda ümidlərini itirib geri dönürlər. Elə insanlar da var ki, yorulmur, daim irəliyə, ucalığa çalışırlar. Qəzənfər Abbasov elmi və pedaqoji fəaliyyətində yüksəkliyə, zirvələrə can atan insanlardan biridir.

O, 1938-ci il may ayının 25-də Yevlax rayonunun Qaraməmmədli kəndində qulluqçu ailəsində anadan olmuşdur. Orta təhsilini Yevlax şəhərində almışdır. Fəhlə-gənclər orta təhsil məktəbində təhsil almaqla yanaşı, 1953-1956-cı illərdə SSRİ Dövlət Bankının Azərbaycan Respublika Kontorunun Yevlax rayon şöbəsində mühasib şagirdi, mühasib, böyük mühasib və digər müəssisələrdə mühasib vəzifələrində çalışmışdır. 1965-1967-ci illərdə Bakı Sovet Ticarəti Texnikumunda "Mühasibat uçotu" fənni üzrə müəllim, 1967-ci ilin sentyabr ayından hazırki dövrə kimi D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universitetində) müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. Hazırda Qəzənfər Abbasov həmin universitetdə "Mühasibat uçotu və audit" kafedrasının professoru vəzifəsində öz fəaliyyətini davam etdirir.

Qəzənfər Abbasov 1959-cu ildə "Mühasibat uçotu" ixtisası üzrə sənədlərini S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) açılmış "Mühasibat uçotu" ixtisası üzrə qiyabi şöbəsinə vermiş və müvəffəqiyyətlə imtahanları verərək qəbul edildikdən sonra həmin universiteti 1964-cü ildə bitirmişdir.

Azərbaycan Xalq Təsərrüfatı İnstitutu öz müstəqil fəaliyyətini bərpa etdikdən sonra Qəzənfər Abbasov 1967-ci ildən başlayaraq burada müəllim, baş müəllim vəzifələrində işləyərkən ticarət və ictimai iaşə müəssisələrində mühasibat uçotunun və iqtisadi təhlilin təşkili və təkmilləşdirilməsi mövzusunda tədqiqat aparmağı qarşısına məqsəd qoymuşdur. Elə bu baxımdan da o, "İctimai iaşə müəssisələrində maliyyə nəticələrinin uçotunun operativliyi və analitikliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda namizədlik dissertasiya işini götürmüş və onun üzərində uzun müddət işləmişdir. Lakin həmin ixtisas üzrə Azərbaycan Respublikasında yüksəkixtisaslı mütəxəssislər olmadığından müdafiə təşkil etmək qeyri-mümkün olmuş və Qəzənfər Abbasov 1979-cu ildə Leninqrad şəhərində Sovet Ticarəti İnstitutunun aspiranturasının qiyabi şöbəsinə daxil olmuş və 1983-cü ildə öz dissertasiyasını N.A.Voznesenski adına Leninqrad Maliyyə-iqtisad İnstitutunda müdafiə edərək, elmlər namizədi diplomu almışdır.

Bundan sonra o, 1984-1990-cı illər ərzində D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Mühasibat uçotu" kafedrasında dosent vəzifəsində, 1990-1994-cü illəri əhatə edən dövr ərzində isə həm dosent, həm də institutun İctimai peşələr fakültəsinin dekanı olmuşdur.

Qəzənfər Abbasov peşəkar fəaliyyətinin növbəti dövrünü əhatə edən 1994-2000-ci illər ərzində "Mühasibat uçotu və audit" kafedrasının müdiri vəzifəsində çalışmışdır. Sonrakı dövrü əhatə edən 2000-2008-ci illər ərzində o, həmin kafedranın dosenti vəzifəsində işləmişdir.

2008-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin 08.00.12 - "Mühasibat uçotu, statistika" ixtisası üzrə Elmi Şurasında "İdarəetmə uçotunun təşkilinin metodoloji və praktiki problemləri" mövzusunda doktorluq işini müdafiə etmiş və həmin ildən də kafedranın professoru vəzifəsində işləməyə başlayan Qəzənfər Abbasovun fəaliyyəti çox məhsuldar olmuşdur. Belə ki, bu dövr ərzində onun tərəfindən 14 dərslik və dərs vəsaiti, 1500-ə qədər elmi məqalə nəşr etdirilmiş, eləcə də müqavilə əsasında ölkəmizdə fəaliyyət göstərən 5 müəssisə və təşkilatın iş fəaliyyətinə dair elmi-tədqiqat işləri aparılmışdır; onun rəhbərliyi ilə 14 doktorant dissertasiyalarını müdafiə edərək mühasibat uçotu üzrə fəlsəfə doktoru elmi adlarına



layiq görülmüş və hazırda 4 doktorant mühasibat uçotunun bu və ya digər problemləri üzərində işlərini davam etdirirlər.

Azərbaycan Respublikasında yerinə yetirilən elmi işlərlə yanaşı, o, Rusiya Federasiyasının Moskva və Sankt-Peterburq, Ukraynanın Kiyev və Belarus Respublikasının Minsk şəhərlərində təşkil edilən elmi konfranslarda da iştirak etməklə öz fikirlərini konfrans iştrakçılarına çatdırmışdır.

Qəzənfər Abbasov universitetin "Mühasibat uçotu və audit" kafedrasındakı fəaliyyəti ilə yanaşı, həm də 1993-cü ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin mətbu orqanı olan aylıq "Maliyyə və uçot" jurnalının baş redaktoru kimi fəaliyyət göstərir. Jurnal beynəlxalq və ölkə daxilində bu və ya digər problemlərin həllinə dair elmi məqalələr dərc etməklə, onların müzakirəsinə yeni oxucu kütləsini cəlb etmək üçün maraqlı layihələr üzərində işini davam etdirir.

Fəaliyyət dövründə Qəzənfər Abbasov dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Dövlət İqtisad Universitetinin fəxri fərmanları ilə təltif edilmişdir. Bu ilin 28-29 aprel tarixində Şamaxı şəhərində keçirilən II Milli Mühasiblər Forumunun Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində çoxsaylı kadrların hazırlanmasına və sahənin elmi-nəzəri əsaslarının tədqiqinə verdiyi töhfələrə görə Qəzənfər Abbasov fəxri fərmanla təltif edilmiş, onun baş redaktor olduğu "Maliyyə və uçot" jurnalı "İlin ən yaxşı mühasibat uçotu jurnalı" müsabiqəsinin qalibi elan edilərək mükafatlandırılmışdır.

Qeyd edilənlərlə yanaşı, professor Qəzənfər Abbasov Azərbaycan kütləvi informasiya vasitələri işçilərinin həmkarlar ittifaqının "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı" mükafatları laureatıdır. O, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" medalına layiq görülmüşdür.

Ümumiyyətlə, Qəzənfər müəllim ömrünün 80-ci, iş fəaliyyətinin isə 65-ci ilində tədris, elmi və mətbu proseslərdə çox məhsuldar işləyir, həm təcrübə, həm də elmi istiqamətdə əldə etdiyi nailiyyətləri öz tələbə və doktorantlarına tədris etməyi davam etdirir.

Qəzənfər müəllimi yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, ailə səadəti, elmi fəaliyyətində uğurlar diləyirik.

**Ziyad Səmədzadə,**
**akademik, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri**

**Sifariz Səbzəliyev,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, əməkdar müəllim**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# Təminatlı sabah üçün bu gündən yığım

***Sığorta gələcəkdə yarana biləcək riskləri indidən zəmanət altına almağa imkan verdiyindən meydana çıxacaq narahatlıqları da bu yolla aradan qaldırmağa şərait yaradır.***

***Sığorta müəyyən bir yığımı təmin etdiyindən həm maddi, həm də inam hissi formalaşdırmaqla mənəvi cəhətdən rahatlıq verən bir sistemdir. Nəinki özümüzü, həmçinin ailəmizi, sevdiklərimizin sağlamlığını, qiymətli əşyalarımızı belə sığortalayaraq qorumaq imkanımız mövcuddur.***

**Sığortanın üstün cəhəti nədir?**

Risk daha çox gələcəyə yönəlik bir anlayışdır. Təbii ki, gələcək də qeyri-müəyyənliklərlə dolu olduğundan, hər an zərər və ya itki vəziyyətilə qarşılaşa bilərik. Sığortanın əhəmiyyəti isə məhz bu anda özünü göstərir, əvvəlcədən müəyyənləşdirilməyən hadisələr üçün indidən tədbir görməyə kömək edir. Üstün cəhət isə odur ki, bu tədbirlər mövcud həyat şərtlərimizə çox da böyük təsir göstərmədən həyata keçirilir. Yəni, gələcəkdə baş verəcək və böyük maddi vəsait tələb edəcək hansısa bir hadisə üçün bir növ indidən kiçik miqdarda yığım edərək, ehtiyac yarandıqda daha az maddi sıxıntı yaşamaq sığorta sayəsində mümkün hala çevrilir. Hazırda Azərbaycanda da insanların həyatını, yaxud hansısa mülkünü, əşyalarını və s. sığortalamaq üçün çoxsaylı sığorta şirkətləri mövcuddur ki, onlardan biri də "Azərbaycan Sənaye Sığorta" ASC-dir.

**Şirkət haqqında**

"Azərbaycan Sənaye Sığorta" ASC Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 17 dekabr 1996-cı il tarixində təsis edilmiş "Cİ Sığorta" MMC-nin təşkilati-hüquqi formasının dəyişdirilməsi yolu ilə yaradılmış və onun hüquqi varisidir. 2008-ci ilin sonunda Açıq Səhmdar Cəmiyyətə çevrilmişdir. 125 000 ABŞ dollar həcmində nizamnamə kapitalı ilə dövlət qeydiyyatından keçən Cəmiyyətin nizamnamə kapitalı 24 may 2010-cu il tarixində 4 000 000 manata çatdırılmışdır. 28 iyun 2012-ci il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən, "İcbari Sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsinə əsasən, "Azərbaycan Sənaye Sığorta" ASC-yə icbari sığorta növləri üzrə fəaliyyət göstərmək üçün icazə verilmişdir. Beləliklə, Cəmiyyət İcbari Sığorta Bürosunun üzvlüyünə qəbul edilmişdir.

12 dekabr 2012-ci il tarixində Cəmiyyətin nizamnamə kapitalı artaraq 8 160 000 manata çatdırılmışdır. 29 könüllü, 4 icbari olmaqla, cəmi 33 növ üzrə sığorta xidməti göstərən "Azərbaycan Sənaye Sığorta" ASC-nin səhmlərinin 75%-i "Anadolu İnvestment Kompani"MMC-yə, 25%-i isə "Azərbaycan Sənaye Bankı" ASC-yə məxsusdur.Hazırda Cəmiyyət 30-a yaxın nümayəndəlik və satış mərkəzləri ilə geniş bir əhatədə müştərilərinə operativ xidmət göstərməkdədir.

Şirkətə Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, 02 aprel 2012-ci il tarixində sığorta fəaliyyəti, 28 fevral 2014-cü il tarixində isə təkrarsığorta fəaliyyəti üzrə müddətsiz lisenziya verilmişdir.

26 dekabr 2014-cü il tarixində Cəmiyyətin nizamnamə kapitalı keçmiş illərin bölüşdürülməmiş mənfəəti hesabına artaraq 11 000 000 manata çatdırılmışdır.

"Azərbaycan Sənaye Sığorta" ASC geniş beynəlxalq əlaqələrə malik peşəkar sığorta şirkətidir. Şirkətin müştərilərə qarşı siyasətinin



əsasını hər riskə fərdi qaydada yanaşma təşkil edir. Şirkətin təkrarsığorta fəaliyyətinin tələblərinə əsasən, sığortalanan irihəcmli risklərin beynəlxalq bazarda və yüksək reytinqli şirkətlərdə təkrarsığortalanması təmin edilir. Risklər təkrarsığortalanarkən prosesin optimal şəkildə həyata keçirilməsinə, yəni minimum xərclərlə maksimum yüksək keyfiyyətli təkrarsığorta təminatının alınmasına çalışılır.

Şirkət hüquqi və fiziki şəxslərə müxtəlif sığorta növlərini özündə birləşdirən kompleks xidmətlər təklif edir. Hüquqi şəxslərə təklif olunan sığorta xidməti avadanlığın zədələnməsi, əmlakın məhv olması və ya korlanması nəticəsində, bağlanmış müqavilələrə görə öhdəliklərin yerinə yetirilməsi müddətlərinə riayət olunmamasına, kreditin qaytarıla bilməməsinə və ya müəssisənin almalı olduğu mənfəəti ala bilməməsinə görə müştəriyə dəymiş ziyanın ödənilməsi məqsədini daşıyır.

Fiziki şəxslərlə bağlanan sığorta müqaviləsi isə sığorta hadisəsi baş verdiyi halda, fiziki şəxsin maraqlarının müdafiəsi üçün nəzərdə tutulmuş bir sığorta növüdür, həmçinin icbari və könüllü sığorta istiqamətlərini birləşdirən geniş sığorta sahəsidir. İcbari sığorta avtomobil sahiblərinin əmlak və mülki məsuliyyətinin icbari sığortasından ibarətdir. Məcburi həyata keçirilən belə sığorta növləri ölkə vətəndaşlarının müdafiəsini əhatə etməlidir. Könüllü sığorta müqaviləsinin olub-olmaması barədə qərarı isə sığortaçı özü verir. Bu müqavilə əmlakın əlavə sığortası, nəqliyyat sığortası və həmçinin turist sığortası formasında ola bilər.

**Fermerləri yaxından dəstəkləyir**

"Azərbaycan Sənaye Sığorta" ASC ölkədə fəaliyyət göstərən fermerləri də yaxından dəstəkləyir. Şirkət 2017-ci ilin fevral ayında kənd təsərrüfatı bitkilərinin sığortası üzrə son üç ilin ən böyük sığorta ödənişini həyata keçirib. Ötən il Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, İmişli, Samux, Tovuz, Tərtər rayonlarında şəkər çuğunduru əkin sahələrinə güclü dolu yağması nəticəsində fermerlərə ciddi ziyan dəyib. Sığortalı 62 fermerin əkdiyi şəkər çuğundurunun 481 hektarlıq sahəsi yararsız hala düşüb. Fevral ayının 21-də sığorta şirkəti dəymiş zərər üzrə, ümumilikdə, 205 392 manat sığorta ödənişi həyata keçirib. "Azərbaycan Sənaye Sığorta"ASC 2017-ci ilin mart ayında Biləsuvar və Kürdəmir rayonlarında şaxta nəticəsində şəkər çuğunduru əkin sahələrinə dəyən zərər üçün də, ümümilikdə, fermerlərə 604 267 manat sığorta ödənişi həyata keçirib.

Ötən il şirkətin ödədiyi digər bir sığorta ödənişi isə yük sığortası üzrə olub. 2017-ci ilin dekabr ayında daşınan yükə dəymiş zərərə görə ödənilən məbləğ 26 min 335 manat təşkil edib.

Şirkət tərəfindən, ümumilikdə, 2017-ci ildə könüllü tibbi sığorta növü üzrə ümumi olaraq 1 milyon 701 min 400 manat, kənd təsərrüfatı məhsullarının sığortası növü üzrə 1 milyon 318 min 64 manat, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növü üzrə isə 560 min 145 manat sığorta ödənişi edilib.

**"Dünyanı aydın və gözəl görək!"**

"Azərbaycan Sənaye Sığorta" ASC yalnız sığorta fəaliyyəti ilə məhdudlaşmır, həm də bir sıra sosial layihələrin də təşkilatçısıdır. Ötən ilin 15 sentyabrında - Bilik günü ərəfəsində şirkət "Dünya Göz Azərbaycan" oftalmoloji göz klinikası ilə birgə 4 nömrəli Respublika Xüsusi İnternat məktəbində keçirilən aksiya vasitəsilə valideyn himayəsindən məhrum uşaqlarda göz xəstəliklərinin profilaktikasının aparılması və onların müayinəsini təşkil etmişdir."-Dünyanı aydın və gözəl görək!" şüarı altında keçirilən aksiyada sağlamlıq imkanları məhdud olan uşaqlara "Dünya Göz Azərbaycan" klinikasının təcürbəli həkimləri tərəfindən pulsuz tibbi xidmət göstərilmişdir. Uşaqların görmə qabiliyyəti yoxlanmış, göz şişkinliyi, göz sulanması, çəpgözlük, katoraktal virus kimi infeksiyalar xüsusi aparatlar vasitəsi ilə müayinə edilmişdir.

**Əsas məqsəd etimad və qarşılıqlı inamdır**

Şirkət 2016-cı ildə göstərdiyi uğurlu fəaliyyətə görə bir neçə mükafata da layiq görülmüşdür. "Azərbaycan Sənaye Sığorta" ASC Global Brands Magazine tərəfindən "Ən yaxşı qeyri-həyat sığortası şirkəti-2016" ("Best non-life insurance company-Azerbaijan 2016") seçilmişdir. "Azərbaycan Sənaye Sığorta"ASC-ni dünyanın ən nüfuzlu marka mükafatlarından biri olan Global Brands Magazine Awards-un mükafatlandırması müştərilərinə standart olmayan qeyri-həyat sığortası məhsulları təqdim edərək, brend yaratmağı bacaran şirkətin həm də spesifikliyini göstərir.

Şirkət Finans Digest Magazine tərəfindən də "Biznes Sığortada Mükəmməllik Brendi-2016" ("Brand of Business Excellence-Azerbaijan 2016") mükafatına da layiq görülmüşdür. 2017-ci ilin fevral ayında "Azərbaycan Sənaye Sığorta" ASC Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən "Şəffaf Vergi Partnyorluğu statusu" əldə etmişdir.

"Azərbaycan Sənaye Sığorta" ASC, eyni zamanda, dünyanın müxtəlif yerlərində, o cümlədən ABŞ, Avropa, Asiya, Rusiya, MDB-də fəaliyyət göstərən təkrarsığorta və broker şirkətləri ilə əməkdaşlıq edir. Bu şirkətlərin arasında GULF, Lloyd's, ACE, Polish Re, Willis, MapfRe, Ergo, AXA, Inter Partner, XL, Scor, Swissre kimi şirkətləri nümunə göstərə bilərik.

"Azərbaycan Sənaye Sığorta" ASC-nin sığorta və təkrarsığorta fəaliyyətində əsas məqsədi şəffaf siyasət yürütməklə, etimad və qarşılıqlı inamı təmin etməkdir. Şirkət satışları daha da genişləndirmək, korporativ tibbi sığorta sahəsində satışları artırmaq sahəsində daim irəliyə doğru addımlar atır, həmçinin qarşıdakı illərdə yeni sığorta məhsulları buraxmağı da düşünür.

**Mətanət Hüseynova**

# AZƏRBAYCAN AUDİTİ – 2017



Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixində imzaladığı "Auditor xidməti haqqında" Qanuna əsasən bərqərar olmuş Azərbaycan auditi 21 il ərzində uğurlu bir inkişaf yolu keçmişdir. Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan müstəqil auditin ölkəmizdə formalaşdırılması və onun normativ hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin bu müstəqil növünün uğurlu inkişafına imkan yaratmışdır.

Ölkəmizdə auditor fəaliyyətinin dövlət tənzimlənməsi Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən həyata keçirilir.

Auditorlar Palatasının fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, daxili audit xidmətinin korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilməsi, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülmüşdür. Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası və Avropa Mühasiblər və Auditorlar Federasiyası kimi çox nüfuzlu təşkilatlarda ölkəmizi layiqincə təmsil edir.




Ölkəmiz üçün 2017-ci il dərin iqtisadi islahatlar ili olmuşdur. Bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Məhz buna görə də həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşmışdır. Respublikamız uzun illərdir ki, MDB məkanında liderlik mövqeyini qoruyur və möhkəmləndirir.

Auditorlar Palatası 2017-ci ildə öz fəaliyyətini "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, ölkə prezidenti tərəfindən imzalanmış digər qanun, fərman və sərəncamlara, habelə Palata Şurasının 2016-cı il 5 dekabr tarixli 282/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2017-ci il üzrə iş planlarına, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər), eləcə də Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) həqiqi üzvü kimi üzərinə götürdüyü öhdəliklərə və digər sənədlərə müvafiq olaraq qurmuş və ölkənin iqtisadi-siyasi həyatında fəal rol oynamışdır.

2017-ci ildə Auditorlar Palatası öz fəaliyyətini ölkə prezidentinin Auditorlar Palatasının 20 illiyi münasibətilə Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanlandığı 2016-cı il 4 aprel tarixli müraciətdə öz əksini tapmış proqram xarakterli tövsiyə və tapşırıqlarına uyğun olaraq həyata keçirmişdir.

Müasir reallıqla həmahəng səslənən bu fikirlər ölkə prezidentinin uzaqgörən siyasətinin və dərin düşünülmüş dövlət quruculuğu strategiyasının bariz nümunəsidir.

Auditorlar Palatasının 2017-ci il üzrə iş planı auditin təşkili və tənzimlənməsi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, kadr hazırlığı, beynəlxalq əlaqələr, nəşrlər, konfranslar və seminarlar, maliyyə-informasiya təminatı, palatadaxili tənzimləmə istiqamətlərində Palatanın fəaliyyətini özündə ehtiva etdirmişdir.

İş planına uyğun olaraq aşağıdakı istiqamətlər üzrə nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir:

- "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər)" nəzərdə tutulan tədbirlərin icrası;
- Audit qanunvericiliyinə dair normativ-hüquqi aktların layihələrinin hazırlanması və müzakirəsi;
- Məcburi auditdən yayınmanın qarşısının alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) ilə birgə işlərin aparılması;
- Azərbaycanda auditor xidməti bazarının təhlili;
- Auditor fəaliyyətində dempinq və haqsız rəqabətə qarşı tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi;
- Auditorların metodik vəsaitlərlə (o cümlədən, beynəlxalq peşəkar qurumların normativ sənədləri ilə) təmin edilməsi;
- Beynəlxalq Audit Standartlarının tətbiqinə dair IFAC-ın və digər peşəkar qurumların metodiki vəsaitlərinin tərcüməsi və tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi;
- Auditə ictimai etimadın gücləndirilməsi və auditin təşviqi istiqamətində tədbirlər sisteminin hazırlanması və tətbiqi;
- Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə edilən əlavə və dəyişikliklərin mütəmadi qaydada auditorlara çatdırılmasının təşkili;
- IFAC-ın 1 №-li Üzvlüyə dair Öhdəlik Tələblərinə (SMO) müvafiq olaraq təsdiq edilmiş plana əsasən auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin aparılması və onun nəticələrinə dair icmalın hazırlanması;
- Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik hesabatın hazırlanması;
- Auditorlar Palatası ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili;
- Auditor adı almaq üçün imtahanların təşkili;
- Auditor təşkilatlarının əməkdaşları (assistentlər, mütəxəssislər) üçün ixtisasartırma kurslarının keçirilməsi;
- IFAC-a təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi;
- Beynəlxalq audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi;
- Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi;
- Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə yoxlamaların aparılması;
- Auditə dair beynəlxalq normativ sənədlərin hazırlanmasında və sorğularda iştirak edilməsi;
- Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili;
- Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşr etdirilməsi;
- Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işıqlandırılmasının təşkili;
- Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin müntəzəm məlumatlandırılması;
- Təsərrüfat subyektlərində 2016-cı ildə aparılmış auditlər barədə vahid məlumatların reyestrinin hazırlanması;
- Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarına dair 2016-cı il üzrə informasiya bazasının hazırlanması;
- Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2016-cı ilin yekunu üzrə təqdim edilmiş illik hesabatların təhlili və tövsiyələrin hazırlanması;
- Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2016-cı ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlara dair icmalın hazırlanması;
- 2016-cı il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi;
- 2016-cı ildə aparılan auditlərin nəticəsinə görə iqtisadi sahələr və ölkənin regionları üzrə iqtisadi göstəricilərin təhlili;
- Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2017-ci ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlara dair icmalın hazırlanması;
- Auditin statistik göstəricilər sisteminin təhlili və müvafiq icmalın hazırlanması;
- Auditor fəaliyyəti ilə əlaqədar proqramlar, təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması;
- Auditin təşkilinə dair xarici təcrübənin öyrənilməsi və tətbiqi;
- 2016-cı ildə auditor təşkilatlarının (sərbəst auditorların) apardıqları auditin keyfiyyətinin kənar təhlili;
- Auditorların ixtisasartırma kurslarının təşkili;
- Daxili audit və mühasibat uçotu kurslarının keçirilməsi;
- Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə edilmiş son əlavə və dəyişiklikləri müntəzəm olaraq auditorların ixtisasartırma kurslarının proqramına daxil edilməsi və tədrisi;
- Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatların yeniləşdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi;
- Palatanın internet səhifəsinin təkmilləşdirilməsi və s;

2017-ci ildə Auditorlar Palatası Əsasnaməsində nəzərdə tutulmuş vəzifə və funksiyalarla yanaşı, bir sıra mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramlarının icrasında iştirak etmişdir. O cümlədən:

I. Ölkə Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı bir sıra işlər görülmüşdür.

Ötən il ərzində Azərbaycan İqtisadçılar İttifaqı və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2017-ci il 21-23 sentyabr tarixlərində "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans, 6 seminar və 3 "dəyirmi masa" keçirilmişdir.

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsindən göndərilən "İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu" çərçivəsində hazırlanmış Azərbaycan Respublikası üzrə hesabatın hökumət və ictimaiyyət nümayəndələrinə təqdim edilməsi ilə əlaqədar Auditorlar Palatasının əməkdaşlarının 2017-ci il 20 fevral tarixində Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçirilən tədbirdə Palatanın nümayəndə heyətinin iştirakı təmin edilmişdir.

"İSO 37001" beynəlxalq standartının ölkəmizdə təşviqi və aidiyyəti dövlət orqanlarının bu standartın tələbləri ilə bağlı maarifləndirilməsi məqsədilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın dəstəyi ilə cari ilin 27 aprel tarixində "İSO 37001" beynəlxalq standartının tələbləri mövzusunda təlim keçirilmişdir.

Prezident Administrasiyasından daxil olmuş 2017-ci il 20 sentyabr tarixli 2/799 nömrəli məktuba əsasən, 2017-ci il ərzində ölkəmizdə həyata keçirilən antikorrupsiya islahatları barədə məlumatların "bir pəncərə" prinsipi əsasında xarici hədəf auditoriyaya çatdırılması məqsədilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən hazırlanacaq "Azərbaycanın yaxşı idarəçilik təşəbbüsləri" adlı illik jurnalın nəşri ilə əlaqədar Palata tərəfindən korrupsiyaya qarşı mübarizə, açıq hökumətin təşviqi və yaxşı idarəçiliyə dair mühüm materialların işlənib hazırlanması və materialların qısa icmalının 2017-ci il 20 oktyabr tarixində Prezident Administrasiyasına göndərilməsi təmin edilmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsindən Palataya daxil olmuş "Yoxlama nəticələrinin rəsmiləşdirilməsi və prokurorluq orqanlarına göndərilməsi barədə" 2017-ci il 21 aprel tarixli 02/7-29 çıx nömrəli məktuba uyğun olaraq, 2017-ci il 08 may tarixində imzalanmış Palata sədrinin 1/23 nömrəli "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə yoxlamaların aparılması, nəticələrin rəsmiləşdirilməsi və müvafiq qurumlara göndərilməsi barədə" sərəncamının 1-ci bəndinə əsasən hazırlanmış "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda" Palata Şurasının 2017-ci il 25 avqust tarixli iclasında müzakirə edilmiş və Şuranın 289/1 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2017-ci il üzrə iş planına dair plan-proqramın 15-ci "Korrupsiya hüquqpozmalarına və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin metodiki təminatı" və Palata Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarına əsasən, 2017-ci il 7 noyabr tarixində Korrupsiya hüquqpozmalarına və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin metodiki təminatı" və "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair tələblər haqqında Qayda" mövzusunda seminar keçirilmişdir.

- Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi;

Auditorlar Palatası 30-dan artıq xarici ölkənin mühasibat və audit qurumları ilə yanaşı, ölkəmizdə bir sıra tərəfdaşlarla - Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə İdarəsi, Hesablama Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Biznes Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası, Turizm və Menecment Universiteti, Azərbaycan Universiteti , Azərbaycan Bank Tədris Mərkəzi, "Barattson Shcool of Business and Finans" MMC, Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası, CBS Language and Business Center MMC, Beynəlxalq Təlim və Layihə Mərkəzi ilə sıx əməkdaşlıq edir.

II. Ölkə prezidentinin 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda Auditorlar Palatasına icrasının təmin edilməsi tövsiyə olunan aşağıdakı işlər icra edilmişdir:

- Palatanın "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda Palataya icrasının təmin edilməsi tövsiyə olunan tədbirlərin həyata keçirilməsi barədə" 2016-cı il 22 noyabr tarixli 1/51 nömrəli sərəncamı təsdiq edilmişdir.
- "Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin Auditorlar Palatası tərəfindən 2017-ci ildə yerinə yetirilməsinə dair hesabat hazırlanmış, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına göndərilməsi təmin edilmişdir.

2017-ci ildə Palata tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı aşağıdakı işlər görülmüşdür:

- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər (bundan sonra - monitorinq subyektləri) üçün metodoloji dəstək sisteminin qurulması - monitorinq subyektləri üçün təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlər görülməsi;

"Milli Fəaliyyət Planı"nın 5.1-ci - "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər üçün metodoloji dəstək sisteminin qurulması - monitorinq subyektləri üçün təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlər görülməsi" və Palatanın 2017-ci il üzrə iş planının 3.9.3-cü - "Auditorlar üçün PL/TM-ə qarşı mübarizə üzrə təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlər görülməsi" bəndlərinə əsasən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris proqramı" hazırlanmışdır.

- Monitorinq subyektlərinin daxili nəzarət sisteminin gücləndirilməsi üzrə tədbirlərin görülməsi - hüquqi şəxs olan monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və effektiv tətbiqinə metodiki dəstəyin təmin edilməsi;

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinə, "Milli Fəaliyyət Planı"nın 5.2-ci - "Hüquqi şəxs olan monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və effektiv tətbiqinə metodiki dəstəyin təmin edilməsi" və Palatanın 2017-ci il üzrə iş planının 3.9.4-cü - "Auditor təşkilatlarına və sərbəst auditorlara qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulması və effektiv tətbiqi üzrə metodiki dəstəyin təmin edilməsi" bəndlərinə əsasən beynəlxalq təcrübə nəzərə alınmaqla "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş"in layihəsi hazırlanmışdır. Layihə Palata Şurasının 2017-ci il 30 iyun tarixli 288/1 nömrəli qərarı ilə bəyənilmişdir.

- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş şübhəli və yüksək riskli əməliyyatların müəyyən edilməsi üçün monitorinq iştirakçılarının informasiya texnologiyaları sistemlərinin təkmilləşdirilməsi - monitorinq subyektlərinə müştəri və benefisiar mülkiyyətçilərin eyniləşdirilməsi, verifikasiyasına dair məlumat bazasının yaradılması və PL/TM risklərinin müəyyən edilməsi, əməliyyatların və riskli müştərilərin monitorinqinə imkan verən informasiya sisteminin tətbiqi üzrə metodiki dəstəyin təmin edilməsi;

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.5-ci bəndinə uyğun olaraq "Auditorlara sifarişçi və benefisiar mülkiyyətçilərin eyniləşdirilməsi, verifikasiyasına dair metodik göstəriş" Palata Şurasının 2017-ci il 19 oktyabr tarixli 291/3 nömrəli qərarı ilə bəyənilmişdir. Şura qərarına əsasən, "Metodik göstəriş"in xidməti istifadə üçün 2017-ci il 22 noyabr tarixində auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilmişdir.

- PL/TM-ə qarşı mübarizə sahəsində qanunvericiliyin monitorinq subyektləri tərəfindən effektiv tətbiqinə nail olunması - monitorinq subyektlərinə "öz müştərini tanı", o cümlədən müştəri qəbulu siyasətinin formalaşdırılması üzrə metodiki dəstəyin təmin edilməsi;

"Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.7-ci - "Auditorlara "öz müştərini tanı", o cümlədən müştəri qəbulu siyasətinin formalaşdırılması üzrə metodiki dəstəyin təmin edilməsi" bəndlərinə müvafiq olaraq hazırlanmış "Auditorların "Öz müştərini tanı" və müştəri qəbulu siyasətinin formalaşdırılmasına dair metodik göstəriş" Palata Şurasının 2017-ci il 25 avqust tarixli 289/3 nömrəli qərarı ilə təsdiqlənmişdir.

- PL/TM-ə qarşı mübarizə üzrə tələblərə riayət olunması mexanizminin təkmilləşdirilməsi - hüquqi şəxs olan monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrasına məsul şəxslərin təyin edilməsi üzrə metodiki dəstəyin təmin edilməsi;

Palatanın 2017-ci il üzrə iş planının 3.9.1-ci - "Auditorlar Palatasında auditor xidməti sahəsində PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrasına məsul şəxslərin təyin edilməsi" bəndlərinə və Palata sədrinin 2017-ci il 23 yanvar tarixli 1/4 nömrəli "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda Palataya icrasının təmin edilməsi tövsiyə olunan işlərin həyata keçirilməsi istiqamətində Palatanın 2017-ci il üzrə Palatada auditor xidməti sahəsində PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrası üzrə məsul şəxslər təyin edilmişdir.

- Nəzarət orqanlarının PL/TM-ə qarşı mübarizə sahəsində yoxlamalara cəlb edilən işçi heyəti üçün təlimlərin keçirilməsi - Nəzarət orqanlarının yoxlamalara məsul olan əməkdaşları üçün yoxlamaların keçirilməsi ilə bağlı təlim proqramının hazırlanması və icrası üzrə tədbirlərin görülməsi;

- Nəzarət orqanlarının PL/TM-ə qarşı mübarizə sahəsində potensialının təkmilləşdirilməsi - nəzarət orqanlarının tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmələrin müəyyən edilməsi;

Palatanın 2017-ci il üzrə iş planının 3.9.2-ci - "Auditorlar Palatasının tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmənin müəyyən edilməsi" bəndlərinə və Palata sədrinin 2017-ci il 23 yanvar tarixli 1/4 nömrəli "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda Palataya icrasının təmin edilməsi tövsiyə olunan işlərin həyata keçirilməsi istiqamətində Palatanın 2017-ci il üzrə iş planının 3.9.1-ci və 3.9.2-ci bəndlərinin icrası barədə" sərəncamının 2-ci bəndinə əsasən Palatanın tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarətin həyata keçirilməsi Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə tapşırılmışdır.

Hesabat ilində Palata tərəfindən Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi" istiqamətində aşağıdakı sənədlərə dair müvafiq rəy və təkliflər hazırlanaraq aidiyyəti orqanlara təqdim edilmişdir:

- "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 566-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 may tarixli Sərəncamı;

- "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 567-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 may tarixli Sərəncamı;

- "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azər-



baycan Respublikasının 2017-ci il 25 aprel tarixli 634-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və s.

- Hesabat ilində Palata tərəfindən auditin təşkili və tənzilmlənməsi ilə alaqədar təsərrüfat subyektlərində aparılan auditlərin vahid məlumat reyestri, sərbəst auditorların və auditor təşkilatlarının 2016-cı ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlarına dair informasiya bazası, 2016-cı il üçün «Auditorların reytinq cədvəli" hazırlanmışdır, ölkənin regionları üzrə auditin iqtisadi göstəriciləri, auditin statistik göstəricilər sistemi təhlil edilmiş və müvafiq icmallar hazırlanmışdır.

Məcburi auditdən yayınmanın qarşısının alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi

Ölkə prezidentinin "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə 2017-ci il 03 may tarixli 1361 nömrəli Fərmanının 50.2-ci, 52-ci və 71.4-cü bəndlərindən irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Palatada "Məhkəmələrlə iş və inzibati protokollar" şöbəsi yaradılmış, tədbirlər planı hazırlanmış və təsdiq edilmişdir. Həmin tədbirlər planının müvafiq bəndlərinə əsasən aşağıdakı işlər görülmüşdür:

- "Məcburi audit subyektlərinə, sərbəst auditorlara və auditor təşkilatlarına tədbiq ediləcək xəbərdarlıq məktublarının, inzibati protokolların, məhkəməyə müraciətlərin və digər zəruri sənədlərin formasının hazırlanması" bəndinə uyğun olaraq, məcburi audit subyektlərinə, sərbəst auditorlara və auditor təşkilatlarına tədbiq ediləcək xəbərdarlıq məktublarının formaları hazırlanmışdır;

- "Xüsusi elanın, reklam çarxının və audit sahəsinin təbliğ edilməsinə dair müvafiq materialların hazırlanması və KİV-də işıqlandırılması" bəndinə uyğun olaraq xüsusi elan hazırlanmış və müvafiq olaraq 13 iyun 2017-ci ildə "Azərbaycan", 14 iyun 2017-ci ildə "Vergilər" və 15 iyun 2017-ci ildə "İqtisadiyyat" qəzetlərində dərc edilmişdir;

- "Müvafiq qurumlardan məcburi auditdən yayınmanın müəyyənləşdirilməsi üzrə təsnifat qrupları üzrə təsərrüfat subyektlərinə dair məlumatların əldə edilməsi" bəndinə uyğun olaraq Vergilər Nazirliyindən vergi ödəyicilərinin dövlət reyestr məlumatlarına əsasən məcburi audit subyektləri barədə məlumat alınmışdır;

- "2016-cı il üzrə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi" bəndinə müvafiq olaraq işlər icra olunub tamamlanmışdır və s.

Ölkə prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2017-ci il tarixli 1746 №-li Fərmanının imzalanması ilə əlaqədar sözügedən tədbirlər planının icrası dayandırılmış, lakin məcburi auditdən yayınmanın qarşısının alınması ilə bağlı Palata öz fəaliyyətini səlahiyyətləri çərçivəsində davam etdirməkdədir.

2017-ci il ərzində 45 sərbəst auditorun, 77 auditor təşkilatının və 15 xarici hüquqi şəxsin ticarət nişanından istifadə edən auditor təşkilatının auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur.

2017-ci il ərzində bağlanmış müqavilələrdən 43 866 557 manat məbləğində 3632-si yerinə yetirilmişdir.

Beləliklə, 2016-2017-ci illər üzrə auditdən keçməyə dair aparılan müqayisələr aşağıdakı nəticələri aşkar etmişdir:

- səhmdar cəmiyyətləri üzrə 16,2%-dən 14,9%-ə qədər azalmış;
- məsulliyətli cəmiyyətlər üzrə 0,8%-dən 0,9%-ə qədər artmış;
- bələdiyyələr üzrə 41,1%-dən 78,7%-ə qədər artmış;
- siyasi partiyalar üzrə 21,8%-dən 30,9%-ə qədər artmışdır.

Palatanın şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıq əlaqələri dövlət sifarişləri formasında 2017-ci ildə də davam etdirilmişdir.

Palatanın "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməsinə uyğun olaraq sərbəst auditorların və auditor təşkilatlarının apardıqları auditin keyfiyyətini yoxlamaq səlahiyyəti vardır. Eyni zamanda, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda sərbəst auditorlardan və auditor təşkilatlarından auditor yoxlamalarını və digər auditor xidmətlərini keyfiyyətli həyata keçirmək, auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat verməK tələb olunur.

Şuranın 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarı ilə 01 yanvar 2010-cu il tarixdən etibarən Respublikada Beynəlxalq Audit Standartlarının tədbiqinə başlanılmışdır, lakin araşdırmalar və yoxlamalar göstərir ki, hələ də bəzi Palatanın üzvləri olan auditorlarımız həmin standartların və bu sahədə beynəlxalq təşkilatların tələblərinə lazımı qaydada riayət etmirlər.

Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının (2012-2020-ci illər) həyata keçirilməsi məqsədi ilə nəzərdə tutulmuş tədbirlərin icrasının təmin edilməsi, Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.4-cü "İFAC-ın 1 №-li Üzvlüyə dair Öhdəlik Tələblərinə (SMO) müvafiq olaraq təsdiq edilmiş plana əsasən, auditor xidmətinin keyfiyyətinə nəzarətin aparılması və onun nəticələrinə dair İcmalın hazırlanması" bəndinə, Palata Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a və Şuranın 2017-ci il 31 yanvar tarixli 285/2 saylı "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2017-ci il üçün Plan-Qrafik"ə əsasən, 2017-ci ildə 29 auditor təşkilatının və 17 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğu, o cümlədən 4 auditor təşkilatının və 6 sərbəst auditorun fəaliyyətləri plandankənar yoxlanılmışdır.

Bütün yoxlamaların nəticələri Keyfiyyətə nəzarət komitəsinin iclaslarında müzakirə olunmuş, müvafiq qərarlar qəbul edilmiş və protokollardan çıxarışlar fəaliyyətləri yoxlanılmış auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara təqdim edilmişdir.

Azərbaycanda beynəlxalq tələblərə uyğun fəaliyyət göstərməyə qadir olan auditor kadrların hazırlanması, onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məsələləri Palatanın fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir.

Tədris və davamlı peşə təhsili proqramlarında qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla 2017-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı, qrafiki və auditorların qruplar üzrə siyahısı hazırlanmış və Şura iclasında müzakirə edilərək təsdiq edilmişdir.

Palata müvafiq iş planına uyğun olaraq "Auditin əsasları" üzrə kursun tədris proqramı hazırlanmış və təsdiq edilmişdir.

2017-ci ildə Palatanın əməkdaşları tərəfindən Azərbaycan Əmək və sosial münasibətlər Akademiyasında "Azərbaycan Respublikası maliyyə nəzarəti sistemində auditin rolu" mövzusunda, Azərbaycan Mühəndislik Universitetində "Auditin əsasları" mövzusunda mühazirələr oxunmuş, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Maliyyə hesabatlarının hazırlanmasında beynəlxalq və milli standartların tətbiqinin təmin edilməsi" mövzusunda təlim keçirilmişdir.

22 noyabr 2017-ci il tarixdə Dünya Bankının mühasibat və audit peşələri üzrə peşə təhsilinə dair seminarda Palata üzvləri iştirak etmişlər.

2017-ci ilin 21-23 sentyabr tarixlərində Bakı şəhərində Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. "JW Marriott Absheron Baku" otelində keçirilən plenar iclasda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına 2017-ci il 22 sentyabr tarixli təbrik məktubu ünvanlamışdır.

2. 2017-ci il 27 fevral tarixində Bakı şəhərində Azərbaycan Respublikası Auditorlar Palatasının və Bolqarıstan Sertifikatlaşdırılmış Mühasiblər İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycan-Bolqarıstan Audit Forumu" keçirilmişdir.

2017-ci il ərzində Auditorlar Palatası tərəfindən 5 seminar, 3 dəyirmi masa, 1 təqdimat mərasimi keçirilmişdir.

Auditorlar Palatası 2017-ci il 4 may tarixində Beynəlxalq Təlim və Layihə Mərkəzi ilə, 2017-ci il 28 noyabr tarixində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə, 2017-ci il 22 sentyabr tarixində Rusiya Auditorlar Birliyi (Assosiasiya) Özünütənzimləyən auditorlar təşkilatı (RAB ÖAT) ilə Əməkdaşlıq Sazişi, 2017-ci il 30 iyun tarixində Latviya Mühasiblər Assosiasiyası ilə Anlaşma Memorandumu imzalamışdır.

Azərbaycan Respublikasının Auditorlar Palatası "UNEC2B" Koordinasiya Şurasına üzv qəbul edilmişdir.

Auditorlar Palatasının əməkdaşları və üzvləri hesabat ili ərzində bir sıra yerli və beynəlxalq tədbirlərdə iştirak etmişlər:

1. 2017-ci il 28-29 mart tarixlərində Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndəsi Belçika Respublikasına işgüzar səfərdə olmuş, EFAA-nın İdarə Heyətinin iclasında və "The Trickle Down Effect (Damlama Təsiri)" : BMHS (IFRS) və "Kiçik və orta olçülü müəssisələr üçün mühasibatlıq metodları" mövzusunda keçirilən dəyirmi masa iclasında;
2. 2017-ci il 26-27 aprel tarixlərində Azərbaycanın nümayəndə heyəti Kiyev şəhərində işgüzar səfərdə olmuşlar. Nümayəndə heyəti Dünya Bankının Maliyyə Hesabatı İslahatlar Mərkəzinin (CFRR) təşkilatçılığı ilə 2017-ci ilin 26-27 aprel tarixlərində Ukrayna Respublikasının paytaxtı Kiyevdə "Maliyyə hesabatlarının əhəmiyyətliliyinin təmin edilməsi: diqqət mərkəzində mikro, kiçik və orta müəssisələrdir" mövzusunda keçirilən seminarda;
3. 2017-ci il 7-9 iyun tarixlərində Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndəsi Almaniya Federativ Respublikasının Berlin şəhərinə işgüzar səfərdə olmuş, EFAA-nın İdarə Heyətinin iclasında, İllik Beynəlxalq Konfransında və İllik Ümumi İclasında;
4. 2017-ci il iyun ayının 26-da Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti Belarus Respublikasının Minsk şəhərində Belarus Respublikası Maliyyə Nazirliyinin rəhbər işçilərinin və mütəxəssislərinin ixtisasartırma mərkəzinin rəhbərliyi ilə işgüzar görüşdə;
5. 2017-ci il 24-25 oktyabr tarixlərində Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti Vyana şəhərində işgüzar səfərdə;
6. 2017-ci ilin 6-10 dekabr tarixlərində Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti "Texnologiya və İnnovasiya" mövzusunda keçirilən XII Beynəlxalq Türkiyə Audit Simpoziumunda.

Auditorlar Palatası audit sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsini, eləcə də beynəlxalq audit praktikası əsasında respublikada yüksəldilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər sisteminin işlənib hazırlanmasına xüsusi diqqət yetirir.

Auditorlar Palatası audit sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsini, eləcə də beynəlxalq audit praktikası əsasında respublikada auditin keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər sisteminin işlənib hazırlanmasına xüsusi diqqət yetirir. Auditorlar Palatası bir sıra beynəlxalq peşəkar qurumlara üzv olmuşdur.

IFAC-a 2016-cı ilin fevral ayında müvafiq fəaliyyət planı təqdim olunmuş və həmin plan 2020-ci ilədək olan dövrü əhatə etmişdir. Mövcud plan IFAC-ın internet səhifəsində yerləşdirilmişdir.

İl ərzində IFAC və EFAA-dan daxil olan 38 məlumat xarakterli sənəd xidməti istifadə üçün qəbul edilmiş, 7 sorğu cavablandırılmışdır.

2017-ci ildə Palata Şurası yanında, adları qeyd olunan peşəkar auditorların rəhbərlik etdiyi komitələr öz fəaliyyətlərini Palatanın struktur bölmələri ilə bərabər iş planına müvafiq formada qurmuş və səlahiyyətləri çərçivəsində öhdəliklərini yerinə yetirmişlər. Komitələrin fəaliyyətləri hesabatın müvafiq bölmələrində əksini tapmışdır.

2017-ci il ərzində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 12 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonunadək 296 iclas) keçirilmişdir.

"Azərbaycan Respublikası Auditorlar Palatasının təşkilatçılığı və iştirakı ilə auditin aktual problemləri üzrə keçirilən konfransların, simpoziumların, dəyirmi masaların, seminarların və digər tədbirlərin nəticələri haqda geniş məlumat mütəmadi olaraq Palatanın internet səhifəsində yerləşdirilmişdir.

"İqtisadiyyat" qəzetinin 13-19 aprel 2017-ci il tarixli nömrəsində Palata Aparatının rəhbəri Qəşəm Bayramovun "Azərbaycan auditi-2016" adlı geniş məqaləsi dərc olunmuşdur. Məqalədə Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının icrası, Auditorlar Palatası Əsasnaməsində nəzərdə tutulmuş vəzifə və funksiyalarla yanaşı, bir sıra mühüm əhəmiyyət kəsb edən dövlət proqramlarının icrasında iştirakı barədə ətraflı məlumat verilmişdir.

Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun Belarus Respublikasının Maliyyə Nazirliyinin mətbuat orqanı olan "ФИНАНСЫ. УЧЕТ. АУДИТ" jurnalının 2017-ci il sentyabr nömrəsində "ЗАЧЕМ НУЖНА АУДИТОРСКАЯ ПАЛАТА" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə auditin rolu, əhəmiyyəti və tənzimləyici orqanın funksiyaları və digər məsələlər barədə məlumat verilmişdir.

"İqtisadiyyat" qəzetinin 12-18 oktyabr 2017-ci il tarixli nömrəsində Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi Səbuhi Gülməmmədovun "Bu gün Azərbaycan ictimai-siyasi cəhətdən sabit, iqtisadi gücü sürətlə artan, irimiqyaslı layihələr icra edən ölkədir" adlı geniş məqaləsi dərc edilmişdir. Məqalədə 2017-ci il 21-23 sentyabr tarixində keçirilmiş "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" elmi-praktiki konfransda söylənilən fikirlər, təkliflər, tövsiyələr və s. öz əksini tapmışdır.

Palatanın iş planında, "Açıq Hökumətin Təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda, "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"nda (2012-2020-ci illər) auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşr etdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir.

Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarını əks etdirən hesabatın ictimaiyyətə açıqlanması məqsədilə Palatanın internet səhifəsində yerləşdirilməsi və bir ay müddətində həmin hesabatın qısa icmalının "İqtisadiyyat" qəzetində və digər KİV-də dərc etdirilməsi, ingilis və rus dillərində tərcüməsinin hazırlanıb Palatanın üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir.

**Qəşəm BAYRAMOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatası Aparatının rəhbəri**

**Nəcəf TALIBOV,**
**Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri**

**Səbuhi GÜLMƏMMƏDOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin təşkili və kadr hazırlığı idarəsinin rəisi**

# При поддержке Kapital Bank завершился проект «Made in Azerbaijan – 3»



Kapital Bank всегда уделял и уделяет огромное внимание развитию образования в Азербайджане. Доказательством тому является проект-конкурс Made in Azerbaijan – 3, который был проведен для студентов страны. Согласно условиям конкурса, студенты должны были предъявить свои бизнес-идеи по созданию бренда Азербайджана, сообщили АЗЕРТАДЖ в банке.

На конкурс бизнес-идей были представлены 58 проектов из 6 университетов республики. При подготовке бизнес-идей учитывалось их соответствие заданию и миссии конкурса, реальности применения проекта на внутреннем рынке, упрощенный финансовый план на уровне бизнес-идеи, актуальность и креативность. Совет экспертов оценил представленные бизнес-идеи и 5 проектов получили пропуск в финал.

По решению членов жюри Эшгин Джафаров стал победителем бизнес-идеи Stevia, которая охватывает сельскохозяйственный и промышленный сектор, предлагает производство растения стевии, которая используется в пищевой и лекарственной промышленности. В особенности продукт предусмотрен для страдающих сахарным диабетом и лишним весом.

«В 2016 году между Kapital Bank и Экономическим университетом был подписан меморандум о сотрудничестве. В этом году также на конкурсе со стороны студентов были предоставлены интересные бизнес идеи. Со стороны Kapital Bank победителю проекта был вручен сертификат на инфотур в технопарки ведущих университетов Стамбула. Мы сотрудничаем с различными образовательными учреждениями, поддерживаем и участвуем во многих образовательные проектах страны. В ближайшем будущем также планируем участие и проведение новых образовательных проектов», - отметил директор Департамента по управлению человеческими ресурсами Фаргана Мамедова.

Kapital Bank оказывает услуги населению в 95 филиалах и 7 отделениях по всей стране, имея самую широкую сеть обслуживания. Более подробную информацию о продуктах и услугах банка можно получить на сайте www.kapitalbank.az, страницах банка в социальных сетях, а также, позвонив в центр обслуживания клиентов по номеру 196.

# Азербайджанская и российская структуры по развитию МСБ подписали меморандум о сотрудничестве

Агентство развития малого и среднего предпринимательства Азербайджанской Республики и Корпорация по развитию малого и среднего предпринимательства Российской Федерации подписали меморандум о сотрудничестве, сообщает АЗЕРТАДЖ со ссылкой на ТАСС.

Со стороны корпорации документ подписал генеральный директор Александр Браверман, а со стороны агентства - исполнительный директор Орхан Мамедов.

В рамках меморандума стороны планируют наладить долгосрочное сотрудничество в области обмена опытом и лучшими практиками по основным направлениям развития сегмента малого и среднего предпринимательства, включая финансово-гарантийную, информационно- маркетинговую поддержку. Кроме того, стороны также выразили намерение оказывать содействие налаживанию сотрудничества и проведению взаимных консультаций между предпринимательскими сообществами обоих государств.

Стороны также намерены поощрять создание и развитие совместных проектов России и Азербайджана в сфере малого и среднего бизнеса (МСБ), в том числе и развитие проектов в сфере высоких технологий между российскими и азербайджанскими предпринимателями.

# ОАО «АтаСыгорта» провело День Агента Года



ОАО «АтаСыгорта» провело в городе Губа годовое собрание входящих в служебную сеть страховых посредников и консультантов «День Агента Года». В собрании с участием Председателя Совета Правления Мусеиба Алиева и заместителя Председателя Совета Правления Гошгара Гасанова, приняли участие более 100 страховых агентов, торговых представителей, руководителей филиалов и представителей.

Мероприятие открылось вступительным словом Председателя Совета Правления ОАО «АтаСыгорта» Мусеиба Алиева. Он рассказал про наблюдаемые тенденции в страховом секторе и представил информацию о текущем состоянии, отметил про имеющийся большой потенциал финансового рынка, и высоко оценил усилия в этом направлении страховых посредников. Наряду с этим значительную роль в процессе просвещения широких слоев населения о страховой сфере принадлежит сети агентов. Было отмечено, что ОАО «АтаСыгорта» всегда будет оказывать поддержку своим страховым агентам в усовершенствовании их профессиональных навыков, организации продаж и построении успешной карьеры.

В следующем выступлении, заместитель Председателя Совета Правления Гошгара Гасанова представил информацию о новинках, которые должны положительно сказаться на деятельности агентов ОАО «АтаСыгорта» в страховом секторе. Представил возможности применения их на местном рынке, планы и стратегии по развитию страховых агентов, а также предложения и проекты по продажам добровольных видов страхования посредством сети агентов и автоматизации процессов.

В ходе мероприятия были даны ответы на интересующие страховых посредников и консультантов вопросы. Наиболее активным страховым посредникам были вручены сертификаты и ценные подарки.

Входящее в Группу Компаний «АтаХолдинг», «АтаСыгорта» функционирует в секторе страхования с 2004 года. Компания, обладая активами почти в 30 млн. манатов оказывает своим клиентам услуги по 28 видам страхования – 24 добровольного и 4 обязательного. «АтаСыгорта» также имеет лицензию на осуществление перестраховочной деятельности. Является основателем и членом Бюро по обязательному страхованию. В целом, в сеть обслуживания ОАО"АтаСыгорта" входят более 90 филиалов, представительств и офисов.

# ОПЕК: избыток нефти почти устранен




Избыток нефти на мировом рынке практически устранен после 16 месяцев сокращения объемов производства ОПЕК и ее партнерами.

«ОПЕК, как всегда, готова поддержать стабильность нефтяного рынка вместе с нефтедобывающими странами, не входящими в ОПЕК, участвующими в Декларации о сотрудничестве», - сообщает АЗЕРТАДЖ со ссылкой на ежемесячный отчет организации.

Корректировка производства в рамках соглашения ОПЕК+ также продолжает поддерживать нефтяной рынок, заявила группа.

«Нефтяной рынок был поддержан в апреле возобновлением геополитических проблем, сокращением запасов нефтепродуктов и устойчивым глобальным спросом», - говорится в отчете ОПЕК.

ОПЕК договорилась 30 ноября 2016 года в Вене о сокращении добычи на 1,2 миллиона баррелей в день с октябрьского уровня в целях стабилизации нефтяных цен. Одиннадцать не входящих в ОПЕК стран 10 декабря 2016 года согласовали сокращение своей добычи суммарно на 558 тысяч баррелей, в том числе Азербайджан — на 35 тысяч баррелей в сутки. Соглашение о сокращении нефтедобычи продлено до конца 2018 года. Азербайджан в течение прошлого года и первых четырех месяцев нынешнего года выполнил все взятые обязательства.

# В мировом масштабе пятая часть электроэнергии производится за счет возобновляемых источников

Сегодня 20 процентов общего объема электроэнергии получают из возобновляемых источников. Переход на «зеленую экономику» не только помогает сдерживать изменение климата и уменьшает риски для здоровья, но и приносит экономическую выгоду. Об этом напомнил генеральный секретарь ООН Антониу Гутерриш, выступая на международном форуме в Австрии, сообщает АЗЕРТАДЖ со ссылкой на Новости ООН.

«Ежедневно мне приходится иметь дело с различными проблемами, возникающими в нашем сложном неспокойном мире, – сказал Гутерриш. – Но ни одна из них не может сравниться с изменением климата. Если мы с ней не справимся, то остальные будут только расти и в конце концов поглотят нас».

Генсек предупредил, что избежать этой опасности можно, только активизируя действия по сокращению эмиссий парниковых газов, финансирования мер по адаптации в развивающихся странах и перехода с угля и нефти на «чистую» энергию.

Глава ООН предупредил, что изменение климата представляет собой экзистенциальную угрозу человечеству и в целом жизни на Земле, но сказал, что предпочитает сосредоточиться на том, какие пути выхода из надвигающегося кризиса существуют уже сегодня.

По его словам, в первую очередь, это переход на «чистую» энергию, которая уже стала наименее затратной. Причем, это поняли уже многие страны. В мировом масштабе пятая часть электроэнергии производится за счет возобновляемых источников.

В Марокко строится солнечный энергоцентр площадью с Париж, который к 2020 году будет снабжать энергией более миллиона домов.

Китай уже к июлю прошлого года выполнил цель по объемам солнечной фотоэлектрической энергии, которой намеревался достичь только к 2020 году.

Во Франции приняли закон, призванный положить конец разведке и производству углеводородов. В США, по прогнозам, к 2021 году закроются десятки угольных шахт, а на возобновляемые источники будет приходиться 69 процентов вырабатываемой энергии.

На прошлой неделе одна из ведущих страховых компаний Allianz объявила, что больше не будет страховать угольные шахты и электростанции, работающие на угле.

«Сегодня нам нужна энергетическая революция», - подчеркнул генеральный секретарь.

Сославшись на имеющиеся данные, он сообщил, что в прошлом году объем инвестиций в возобновляемые источники электричества составил 242 миллиарда долларов - вполовину больше, чем в новые предприятия по добыче ископаемого топлива. Но, по словам, Гутерриша, этого недостаточно.

# Стали известны победители “Barama Hackathon 2018”



Объявлены победители проекта Hackathon по Азербайджану, известного как довольно престижное соревнование. Итак, победителями очередного проекта обучающего и соревновательного характера, успешно реализованного Центром инноваций и предпринимательства Barama ООО Azercell Telecom при поддержке PASHA Bank стали: 1-ое место – «Dev adamlar», 2-ое место – «Brogrammers», 3-е место – «Web's Dragons». Победители были награждены ценными призами и сертификатом от Azercell, Центра Barama и PASHA Bank.

Соревнование "Hackathon" считается марафоном программистов и проводится уже в 5-ый раз под организаторством Центра инноваций и предпринимательства Barama. В рамках проекта программисты разрабатывают цифровые ресурсы на определенную тему за короткий промежуток времени. На этот раз разработчикам было поручено создать автономную платформу для Azercell, предоставляющую клиентам информацию о состоянии своего устройства в режиме реального времени с помощью SMS и внутриплатформенных уведомлений. Соревнование с участием 14 команд продолжалось 36 часов. Информационную поддержку проекту оказал портал technote.az

и Барама-медиа. Сеть ресторанов Özsut выступила в качестве партнёра по обеспечению команд едой. Во время соревнования PASHA İnsurance обеспечила участников скорой медицинской помощью.

Отметим, что Центр инноваций и предпринимательства Barama – первый центр инкубации в Азербайджане - отличается богатым опытом, связями с профессиональными менторами и поддержкой влиятельных сотрудников. Barama в основном поддерживает и создаёт ИТ проекты, Облачные вычисления (Cloud Computing) и бизнес-решения, игры, ИВ, Fintech, инновационные решения в сельском хозяйстве, Виртуальную реальность, Развитую реальность и Искусственный Интеллект. До настоящего времени Центр организовал в Азербайджане международные соревнования и бизнес-мероприятия, содействовал стартапам в создании своего бизнеса, оказании инновационных услуг и привлечении новых клиентов.

# Азербайджанская продукция будет представлена на международной продовольственной выставке «Sial China 2018»

На международной продовольственной выставке «Sial China 2018», которая пройдет с 16 по 18 мая в Шанхае, Азербайджан представят 17 компаний.

Как сообщили АЗЕРТАДЖ в пресс-службе Министерства экономики, на выставке азербайджанская продукция будет представлена под единым стендом страны «Made in Azerbaijan» при поддержке министерства и Фонда поощрения экспорта и инвестиций в Азербайджане. На павильоне будут выставлены фруктовые соки, консервированная продукция, вина и различные алкогольные напитки, фундук, кондитерские изделия, чай, шафран, сухофрукты и др.

## Nizami Nağıyev – 75 il

# Böyük müəllim və müdrik ziyalı





## Hörmətli Nizami müəllim!

**Siz Azərbaycan xalqının layiqli oğullarından biri, böyük bir nəslin nümayəndəsisiniz. Qurub-yaratmaq peşənizdir. Nə xoşdur ki, bu gözəl missiya məhz Sizin öhdənizə düşüb və onu ləyaqətlə yerinə yetirirsiniz. Arzu edirəm ki gözəl ürəyiniz daim qurub-yaratmaq eşqi ilə döyünsün. 75 yaşınız mübarək! Sizi bu münasibətlə ürəkdən təbrik edir, uzun ömür, can sağlığı və elmi fəaliyyətinizdə uğurlar diləyirəm.**

**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

Üzündən nuranilik, baxışlarından xeyirxahlıq, insanlara sevgi hissləri boylanan bu geniş mütaliəli və dünyagörüşlü memarla, böyük müəllimlə həmsöhbət olub, onunla bircə kəlmə kəsmək kifayətdir ki, təpədən dırnağacan ziyalı, nurlu bir insana heyran kəsiləsən, valeh olasan. Onu tanımayanlar belə bircə anlıq həmsöhbət olmaqla onun haqqında ilk və böyük təəssürat ala bilir.

Bu - Azərbaycanımızın şəxsiyyət insanlarından olan, Azərbaycan Respublikasının Əməkdar Memarı, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Şurasının və AzMİU-nun memarlıq və şəhərsalma ixtisasları üzrə Dissertasiya Şurasının üzvü, memarlıq doktoru, professor Nizami Həsən oğlu Nağıyevdir. Bu günlərdə 75 yaşı qeyd olunan Nizami Nağıyev barəsində müsbət fikirlər söyləməyə, yazmağa kifayət qədər söz var, onun titullarının siyahısını da istənilən qədər uzatmaq olar. O, elə zəngin və parlaq bir memar müəllim ömrü yaşayır ki, Azərbaycanımızın ən ləyaqətli kişilərindən biri kimi təqdir və təbliğ olunmağa layiqdir.

Başlanğıc və yaxud bu günə gələn cığırlarla...

Nağıyev Nizami Həsən oğlu 1943-cü ilin may ayının 6-da qədim Gəncə şəhərində anadan olmuşdur. 1944-cü ildə atasının işi ilə əlaqədar Bakıya köçmüşlər. Nizami Bakıda boya-başa çataraq, 1950-ci ildə 160 nömrəli rus orta məktəbinə getmiş və 1960-cı ildə bu məktəbi müvəffəqiyyətlə bitirmişdir. Məktəbdə oxuduğu zaman rəssamlığa böyük həvəs göstərmiş və 6-cı sinifdən rəsm və heykəltəraşlıq dərnəklərinə getmişdir.

Nizaminin babası Gəncədə məşhur podratçı Məşədi Hümbət adlı bir ziyalı olmuşdur. 20-ci əsrin əvvəllərində babası Məşədi Hümbət bir sıra məşhur binaların cizgilərini çəkərək özü inşa etmiş və gördüyü işlərlə əlaqədar bir ustad-inşaatçı kimi Gəncə şəhərində böyük nüfuz qazanmışdır. İnşa edilən bu binaların sırasında Gəncədə Xan bağının yanında iki mərtəbəli kərpicdən tikilən inzibati bina, köhnə vağzal binası, şəhərin tarixi hissəsində tikilən ikimərtəbəli bir sıra yaşayış binaları və başqaları Məşədi Hümbətin ustad inşaatçı, qurucu fəaliyyətinin yadigarları kimi bu gün də onu yaşadır.

Babası Məşədi Hümbət 1946-cı ildə dünyasını dəyişmişdir. Hələ kiçik yaşlarından Nizami ailədə babası haqqında aparılan söhbətlərə həvəslə və maraqla qulaq asardı və bunları dinləyən gənc Nizamidə inşaat sənətinə, memarlığa böyük həvəs də o illərdə oyanmışdı.

**Nəsildən gələnlər və böyük arzuların dalınca...**

Nizami məktəbi bitirərək böyük arzularla 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin memarlıq bölməsinə qabiliyyət imtahanlarından əla qiymətlər alaraq qəbul olunur. O vaxtlar memarlıq fakültəsində rus bölməsi yox idi və Nizami Azərbaycan bölməsinə qəbul olunur. Gənc Nizami bununla əlaqədar oxuyarkən ictimai fənlərdən çətinlik çəkirdi və 2-ci kursdan Leninqrad (Sankt-Peterburq) İnşaat Mühəndisləri İnstitutunun şəhərsalma-memarlıq fakültəsinə köçürüldü.



1967-ci ildə Leninqrad (Sankt-Peterburq) İnşaat Mühəndisləri İnstitutunu yaxşı göstəricilərlə bitirən gənc Nizamini Rusiyanın Çerepovets şəhərinə baş memar göndərmək istəyirlər. Ancaq Nizami vətənə qayıdır və Bakı şəhərində "Azdövlətlayihə" İnstitutunda 3-cü memarlıq emalatxanasında memar vəzifəsində çalışmağa başlayır.

Bu dövrdə o bir sıra layihələrin müəllifi olmuş, Füzuli, Yevlax şəhərlərinin baş planlarını işləmişdir. Bakının bir sıra magistrallarının inşa olunma, şəhərsalma layihələrini hazırlamışdır. Bunların sırasında Dəmir yol vağzalından Elmlər Akademiyası kompleksinə qədər yaşayış binalar və onun ətrafında yaşayış komplekslərinin inşası, "28 Aprel" küçəsinin (indiki "28 May") və Neftçilər prospektinin layihələrini qeyd etmək olar.

Nizami bu dövrdə bir sıra memarlıq müsabiqələrində də iştirak etmiş və qələbə qazanmışdır. Məsələn, 1968-ci ildə Sumqayıt şəhərinin mərkəzi hissəsinin müasir səviyyədə inşa edilməsinin beynəlxalq musabiqəsi keçirilmişdir. Moskva, Sankt-Peterburq, Kiyev layihə institutları ilə birgə Bakının iki institutu da bu müsabiqəyə qoşulmuşdur ("Azdövlətlayihə" və "Bakıdövlətlayihə"). "Azdövlətlayihə" kollektivinə Nizami Nağıyev rəhbər təyin edilmişdi və bu kollektiv 2-ci yer tutmuşdur.

Müəllif olduğu bir sıra layihələrə görə gənc memar Nizami Nağıyev 1968-ci ildə Azərbaycan Memarlar İttifaqına üzv seçilmişdir.

**Hər zaman axtarışda...**

Nizami Nağıyev öz üzərində çox çalışırdı və elmə böyük maraq göstərirdi. 1969-cu ildə o, sənədlərini Moskva şəhərinin Şəhərsalma üzrə mərkəzi elmi-tədqiqat institutuna verərək, əyani aspiranturasına daxil olmuşdur. 3 il müddətində Moskva şəhərində aspiranturada oxuyaraq, dissertasiya hazırlamış və 1974-cü ildə müdafiə edərək memarlıq sahəsində elmlər namizədi elmi dərəcəsinə nail olmuşdur.

Aspiranturanı bitirdikdən sonra Nizami Nağıyev akademik M.Useynovun təklifi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun memarlıq şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur.

1974-cü ildə Bakıda Azərbaycan Dövlət Tikinti Komitəsi yanında yeni açılmış inşaat və memarlıq elmi-tədqiqat institutuna Nizami Nağıyev şöbə rəisi vəzifəsinə dəvət edilir. Bu zaman onun rəhbərliyi ilə bu şöbədə 12-yə qədər çox sanballı elmi-tədqiqat işləri hazırlanmış və müvəffəqiyyətlə Tikinti Komitəsinə təhvil verilmişdir.

Nizami Nağıyev 1976-cı ildə Azərbaycan Dövlət Tikinti Komitəsinin təklifi ilə "Azdövlətlayihə" İnstitutunun 3-cü şəhərsalma emalatxanasının rəhbəri vəzifəsinə dəvət edilmiş və bu vəzifədə 1978-ci ilə qədər qüsursuz çalışmışdır.

Bu zaman onun rəhbərliyi altında və müəllifliyi ilə Azərbaycanın bir sıra şəhərlərinin baş planları işlənmişdir. Bunların sırasında Şəki, Lənkəran, Xaçmaz, Gəncə, Qazax, Ağstafa və başqalarının xüsusilə qeyd etmək olar.

1978-ci ildə Nizami Nağıyev Azərbaycan Dövlət Tikinti Komitəsinin mənzil-ictimai tikinti baş idarəsinin rəisi vəzifəsinə dəvət edilmiş və respublikada böyük quruculuq işlərinin iştirakçısı olmuşdur. O vaxtlar işlənilən Bakı şəhərinin baş planının, ayrı-ayrı baş planların, respublikanın bölgələrinin ərazi planlaşdırma işlərinin geniş ekspertizasını apararaq, şəhərlərin və bölgələrin inkişafına təkliflər vermişdir.

Nizami Nağıyev 1980-ci ildə Moskva şəhərinin Bakıda yerləşən böyük filialının "Sentrosoyuzproyekt" Layihə İnstitutuna baş mühəndis, sonra isə 1984-cü ildə direktor təyin olunmuşdur. 1980-ci ildən "Sentrosoyuzproyekt" Layihə İnstitutunda Nizami Nağıyevin rəhbərliyi, özünün iştirakı və müəllifliyi ilə 100-dən artıq sənaye, ictimai və yaşayış binalarının layihələri hazırlanmış və inşa edilmişdir. Bu layihələr tək Azərbaycanda yox, həm də Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Rusiya kimi ölkələrdə də inşa edilmişdir.

Nizami Nağıyevin institutun əməkdaşları ilə birgə iki layihəsi 1983 və 1985-ci illərdə SSRİ Memarlar İttifaqı tərəfindən Moskva şəhərində keçirilən SSRİ üzrə "İlin ən yaxşı layihəsi" müsabiqələrində və sərgilərdə qızıl medala və diplomlara layiq görülmüşdür.

Nizami Nağıyev 1989-cu ildə Azərbaycan Respublikasının Dövlət Tikinti Komitəsinə sədr müavini vəzifəsinə təyin edilmişdir, sonralar sədrin birinci müavini, sədr əvəzi olmuşdur.

Nizami Nağıyev layihə institutlarında və dövlət idarələrində işlədiyi zaman təhsillə sıx əlaqədə olmuşdur. Axşam vaxtları əvvəlcə Azərbaycan Politexnik İnstitutunun memarlıq bölməsində saathesabı dərs demişdir. Sonralar isə Azərbaycan Memarlıq İnşaat Universitetində dərs demiş və Universitetin elmi şurasının üzvü olmuşdur.

1996-cı ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinə tam işə keçmişdir. "Memarlıq və şəhərsalma" kafedrasında professor vəzifəsində çalışmışdır. 1996-cı ildə memarlıq fakültəsinin dekanı seçilmişdir. 2001-ci ildən isə "Memarlığın əsasları" kafedrasının müdiridir.

Nizami Nağıyev 20-dən çox elmi-tədqiqat işinin, 40-dan çox elmi məqalənin, bir sıra dərsliklərin, iki monoqrafiyanın müəllifidir.

Bununla yanaşı, Nizami Nağıyev bir sıra respublika və beynəlxalq elmi konfranslarda Azərbaycan memarlığı və şəhərsalması üzrə çıxışlar edərək, respublikamızda bu sahənin hərtərəfli inkişafını konkret faktlarla göstərmişdir. Belə çıxışlar İtaliya, Rusiya, İran İslam Respublikası, Portuqaliya, Türkiyə, Rumıniya, Özbəkistan, Gürcüstan və başqa ölkələrdə olmuşdur.

Nizami Nağıyev 1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının memarlıq doktoru elmi dərəcəsini almışdır, ona 1997-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının professor-doktoru adı verilmiş və 2014-cü ildə həmin akademiyanın akademiki seçilmişdir.

1995-ci ildə Azərbaycan Dövlət Tikinti Komitəsinin "İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun" fəxri doktoru seçilmişdir.



1992-ci ildə Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü, 1994-cü ildə həmin akademiyanın vitse-prezidenti, 2000-ci ildə birinci vitse-prezidenti seçilmişdir.

Nizami Nağıyev 2011-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək, memarlıq doktoru elmi dərəcəsinə nail olmuşdur.

1995-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində professor vəzifəsində çalışır.

Azərbaycan Respublikasının əməkdar memarı, memarlıq doktoru, professor Nağıyev Nizami Həsən oğlu Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Şurasının və AzMİU-nun memarlıq və şəhərsalma ixtisasları üzrə Dissertasiya Şurasının üzvüdür.

Nizami Nağıyev memar kimi fəaliyyəti dövründə ictimai işlə də məşğul olmuşdur. O, 1980-ci illərdə Bakının Oktyabr rayonunun deputatı kimi rayonun abadlıq işlərində çalışmışdır.

1969-cu ildən Azərbaycan Respublikasının Memarlar İttifaqının üzvlüyünə qəbul edilmişdir, 1970-ci ildə Memarlar İttifaqı Rəyasət Heyətinin üzvü, SSRİ Memarlar İttifaqının Rəyasət Heyətinə seçilmişdir.

1990-cı ildə ona Azərbaycanın "Əməkdar memarı" fəxri adı verilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2016-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Nizami Nağıyev yaşadığı ömürlə illərdir ki, cəmiyyətdə və işlədiyi kollektivlərdə bir insanlıq və rəhbər nümunəsi formalaşdırmışdır. Bu şəxsiyyət sevgi üzərində xəlq olunub, həyata, insanlara, mənsub olduğu millətə təmənnasız sevgi, hörmət və qayğı hissləri onu yaşadan əsas meyarlardır.

Bu gün çalışdığı Azərbaycan Memarlıq və İnşaat Universitetində həm rəhbərlik və müəllim kollektivi, həm də tələbələr arasında (Nizami müəllimin dərs demədiyi digər fakültələrdə oxuyan tələbələr də ona hörmətlə yanaşır) yüksək nüfuz və hörmət sahibidir, hamı onun yolunu tutur, ağsaqqallığına, böyük müəllimliyinə dəyər verir. Onun 75 illik yubileyi Nizami müəllimin dərs dediyi və hərəsi bu gün müxtəlif layihə, memarlıq qurumlarında və tikinti təşkilatlarında çalışan yüzlərlə tələbəsi üçün də unudulmaz məqamdır. Onu tanıyan hər kəs Nizami müəllimlə dostluğundan, tanışlığından məmnundur və qürur duyur.

Nizami Nağıyev bütün bunlarla bərabər, yaradıcı insan olaraq sözə, sənətə, mətbuata və jurnalist peşəsinə dəyər verən rəhbər olub və bu gün də belədir. Bir kiçik məqamı da yada salaq ki, Nizami Nağıyev Dövlət Tikinti Komitəsinin sədr müavini və sədr əvəzi işlədiyi zamanlarda Komitənin qəzeti olan "İnşaatçı" qəzetinə xüsusi qayğı ilə yanaşıb, köməyini əsirgəməyib.

Belə bir ömür yaşamağı hamı çox istərdi, çox arzulayardı, ancaq bu, hər kəsin gücündə və qismətində deyil.

Nizami müəllim, Sizi tanıyan minlərlə insanın adından bu gün ərklə 75 illik yubileyinizi təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq. Sizin kimi ustadlar bu millətin böyük qazancı, əvəzsiz sərvətidir. Hər zaman sırada olun, böyük və müdrik müəllim missiyanızı davam etdirin. Bizim Sizə etiyacımız var.

75 yaşınız mübarək olsun!

**Zərbalı MİRZƏ**

# ÖMRÜN 75-Cİ BAHARI

Elçin müəllim, Siz Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi böyük bir nəslin yadigarısınız, eyni zamanda, xalqın, millətin iftixarısınız. Söz vaxtına çəkər, - deyiblər. Yadınızdadırsa, 60 yaşınız tamam olanda mən dostumuz, yazıçı Əfqanla birlikdə elə bu qəzetin səhifələrində ("İqtisadiyyat" qəzeti, N 22. 17-22 may) "Vətənə, xalqa vurğun ziyalı" adlı yazı ilə Sizi təbrik etmiş, arzularımızı bildirmişdik. Həmin təbrik yazısındakı xoş sözləri bu gün də təkrarlamaq mənə xoşdur. "...Bu gün bütün xalqımız, o cümlədən xalqın çırağı olan ziyalılar müsəlləh əsgər kimi Vətənin xilasına qalxmışlar. Sevimli yazıçımız Elçin də bu müsəlləh əsgərlər arasında həm sözü, həm də əməli ilə mübarizə aparır. İnsan arzusunun, insan fəaliyyətinin ən şirin meyvəsi, yaşamağın mənası Qələbədir. Sizə bütün həyat yollarında qələbələr arzulayırıq, dostumuz Elçin!

**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

1943-cü il, İkinci Dünya müharibəsinin tən ortası idi. Artıq Sovet ordusu vətəni alman faşist lərin dən təmizləyirdi. Bu yazda XX əsr Azərbaycan ədəbiy ya tı nın klassiki İlyas Əfən di yevin ailəsində oğlan uşağı dünyaya göz açmışdı. Uşağa ad qoyanda atası İlyas kimi türk adı olan El çin adı ilə razılaşmışdı. Elçin, yəni haqq-ədalət yolçusu, hə qi qət tərəfdarı, düzlük, doğ ruluq, şərəfli insan. Elçin bütün bun ları özündə cəmləşdirdi.



Müasir Azərbaycan ədəbiyyatının böyük nümayəndələ rin dən biri, xalq yazıçısı, filologiya elmləri doktoru, professor El çin 1943-cü il may ayının 13-də, Bakı şəhərində, XX əsr Azər baycan ədəbiyyatının klassiki İlyas Əfəndiyevin ailəsində ana dan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun fi lo lo gi ya fakültəsində təhsil almış, universitet Elmi Şurasının zə ma nə ti ilə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnsti tu tunda ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturaya daxil olmuş, "Azər baycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizəd lik, daha sonra "Ədəbiyyatda tarix və müasirlik problemi" möv zu sunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Bədii yaradıcılığa lap erkən yaşlarından başlamışdır. İlk he ka yəsi ("O inanırdı") 1959-cu ildə "Azərbaycan gəncləri" qə ze tin də dərc olunmuş və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qar şı lanmışdır. Bundan sonra o, dövri mətbuatda müntəzəm ola -raq bir-birindən maraqlı hekayə, povest, roman və ədə bi-tənqidi məqalələrlə çıxış etmişdir. Böyük ədibin müxtəlif dillərdə heka yə lə rin dən, povest, roman və pyeslərindən ibarət 100-dən çox kitabı, elmi monoqrafiyaları nəşr edilmişdir. El çi nin məşhur "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hök mü" romanları Azərbaycan nəsrinin qızıl fonduna daxil olmuşdur.

60-cı illər ədəbi nəslinin ən istedadlı və aparıcı nümayən də lə rindən olan Elçin əsərlərinin mövzusunu həmişə oxucunu düşündürən, narahat edən, bu gün üçün səciyyəvi, tipik olan hadisələr dən alır. Özünəməxsusluq, orijinallıq, yenilik, psixoloji də rinlik və dəqiqlik, bədii dilin, lüğət tərkibinin zənginliyi, dün yagörüşünün genişliyi onun çoxcəhətli yaradıcılığını şərt ləndirən başlıca xüsusiyyətlərdəndir.

Elçin qələmə aldığı hər bir obrazın dolğun, cəzbedici alın ma sı üçün onun əxlaqi-mənəvi keyfiyyətlərini, düşüncələrini, psixolo giyasını son dərəcə spesifik, mənalı lövhə və detallarla açmağı bacarır. Onun yaradıcılığını şərtləndirən bu cəhətlər həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuş, yüksək qiy mət lən di ril-mişdir.

Əsərlərinin məhz bu keyfiyyətlərinə görə Elçin müxtəlif millətlərdən ibarət milyonlarla oxucu auditoriyasının sevimli yazıçısıdır.

O, istər kiçikhəcmli, istərsə də irihəcmli əsər yazsın, fərqi yoxdur, seçdiyi mövzunu sənətin yüksək bədii-estetik tələbləri səviyyəsinə qaldırır, onun təsvir etdiyi hadisələr həyati, canlı və təsirli alınır, obrazların ömür yolu bədii sözün işığında hərtərəfli görünür. Buna görə də Murad, Sevil, Ağanəcəf, Baladadaş ("Ba ladadaşın ilk məhəbbəti"), Cavanşir, Fazilə, Ayaz ("Qış nağılı"), Ayna, Cəfər, Qəşəm, Sədəf, Salman kişi ("Gümüşü, na rın cı, məxməri"), Qəzənfər, Əmirqulu, Ələkbər, Ağababa, Əzi z ağa ("Baladadaşın toy hamamı"), Cəfər, Səkinə, Güldəstə, Kita bulla, Tamilla ("Bir görüşün tarixçəsi"), Ziba, Mürşüd, İmaş, Cəbi ("Ox kimi bıçaq") və bir çox başqa surətlər yadda qalır, bizə fərdiləşən, psixologiyası, fikir və hiss aləmi doğma olan obraz təsiri bağışlayırlar.

İstedadlı tənqidçi Nadir Cabbarov "Həyat nəfəsli nəsr" məqaləsində yazır: "Ciddi nəsr! Olsun ki, bu ifadə ədəbi anlayış kimi qeyri-dəqiqdir və istilah kimi özünü doğrultmasın. Lakin yazıçının gerçəkliklə ünsiyyəti, onun həyat materialı ilə sənətkar rəftarı baxımından bu ifadə, zənnimcə, çox yerinə düşür: Elçin nəsri ciddi nəsrdir - sözünün canı olan mətləbli nəsrdir".

Elçin təkcə hekayələrində yox, povest və romanlarında da söz israfçılığına yol vermir, həmişə lakonik yazır, əsl mətləbi qələmə alır, rəmz və şərtiliklərdən, öz-özü ilə söhbət və daxili dialoqlardan, əfsanə və nağıl ünsürlərindən tez-tez istifadə edir.

Elçinin "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça" kimi povestləri yalnız Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində nəşr olunmuş, oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Təsadüfi deyil ki, bu povestlər keçmiş Sovet İttifaqının ən populyar və çoxtirajlı jurnallarında dərc edilmişdi.

Onun əsərləri bir çox ədəbi mükafatlar, o cümlədən SSRİ Yazıçılar İttifaqının, "Drujba narodov" və "Smena" (iki dəfə) jurnallarının, "Literaturnaya qazeta"nın (iki dəfə), "Nedelya" həf təliyinin və digər mətbuat orqanlarının "İlin ən yaxşı əsəri" mü -kafatlarını, Moskvada nəşr olunmuş "Əncir ağacı" adlı po vest və hekayələr kitabı keçmiş SSRİ-nin ən nüfuzlu mü ka fat larından birini – Lenin komsomolu mükafatını, "Memar Si nan" Universitetinin (İstanbul), Fateh Universitetinin (İstanbul) mü ka-fatlarını qazanmış, eləcə də ulu öndər Heydər Əliyevin müvafiq Sərən ca mı ilə "İstiqlal", Azərbaycan Respublikasının Prezidenti cə nab İlham Əliyevin Sərəncamı ilə isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Ümumiyyətlə, Elçin keçmiş ümum sovet ədəbi prosesində həm yazıçı, həm də tənqidçi ki mi ən fəal surətdə iştirak edən nüfuzlu bir qələm sahibidir. Onun yalnız elə "Literaturnaya qazeta"da dərc edilmiş onlarla mə qaləsini, "Voprosı literaturı", "Literaturnoye obozreniye" ki mi jurnallardakı nəzəri çıxışlarını xatırlamaq kifayətdir.

Elçinin üç romanı – "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" – yalnız milli romançılığımızın yox, ümumiy yət lə, Azərbaycan ədəbiyyatının ciddi və əhəmiyyətli nailiy yət ləri hesab olunur və onlar bədii-estetik səviyyələri, qaldırdıqları so sial-ictimai problemlərin dərinliyi baxımından keçmiş sovet ədəbiyyatında yaranmış ən mükəmməl romanlar sırasındadırlar.

Misal üçün, "Ölüm hökmü" romanı təxminən 60 illik bir dövrün bədii salnaməsidir. Yazıçı həmin faciəvi və ziddiyyətli dövrlə bağlı həqiqətləri bütün kəskinliyi ilə demiş, sovet ictimai quruluşunun cəmiyyətə vurduğu mənəvi və maddi zərbələrin insan talelərinə təsirini dolğun bədii boyalarla ifadə etmişdir.

Elçinin dramaturgiyası, son illərdə qələmə aldığı komedi ya lar Azərbaycan komedioqrafiyasını keyfiyyətcə yeni mər hə ləyə qaldırmış və milli sənətimizdə bədii-estetik hadisə olaraq "Elçin teatrı"nı yaratmışdır. Onun "Poçt şöbəsində xəyal", "Ah, Pa ris!.. Paris!..", "Mən sənin dayınam", "Dəlixanadan dəli qa çıb, yaxud mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Qa til", "Şekspir" və s. kimi pyesləri yalnız Azərbaycanın deyil, xa rici ölkələrin, o cümlədən Türkiyənin ən böyük teatrlarında uğurla səhnəyə qoyulmuşdur.

Görkəmli tənqidçi Yaşar Qarayev yazır: "Elçin dramatur gi yamızda ilk dəfə olaraq xaosun, hərc-mərcliyin obrazını ya ra dır! Onların əsasında duran mənəvi-əxlaqi, ideoloji ste re otip lə rə, normativ düşüncə və rəftar tərzinə ən müasir, ayıq, oyaq ədəbi-estetik münasibət ifadə edir."

Elçinin "Tənqid və nəsr", "Klassik aşıq ədəbiyyatında "dün ya" obrazı", Üzeyir Hacıbəyovun publisistikasını tədqiq və təh lil edən "Bəstəkarın vətəndaş sözü" monoqrafiyaları, eləcə də Azərbaycanın böyük şəxsiyyətlərinə - Bülbülə həsr edilmiş "Bül bül", Azərbaycan Demokratik Cümhuriyyətinin lideri Məm məd Əmin Rəsulzadənin həyat və yaradıcılığından bəhs edən "Məmməd Əmin Rəsulzadə", yazıçı, siyasi-ictimai xadim Nə riman Nərimanovun yaradıcılığını və fəaliyyətini işıq-lan dı ran "Nəriman Nərimanov", Cəfər Cabbarlının yaradıcılığını yeni aspektdən təhlil edən "Sənətkar və şəxsiyyət" monoqrafik oçerkləri və s. kimi elmi əsərləri Azərbaycan ədəbiyyatşünaslıq elminin son onillərdə əldə etdiyi nailiyyətlərin parlaq nümunələridir.

Onun son illərdə çap etdirdiyi son dərəcə orijinal "Ədəbi düşüncələr"i böyük marağa səbəb olmuş və həm oxucular, həm də ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Elçinin əsərləri rus, ingilis, fransız, alman, ispan, türk, ma car, bolqar, ərəb, rumın, fars, çex, polyak, xorvat, gürcü, mol dav, türkmən, özbək, qazax, tacik, serb və s. dillərə tərcümə edil mişdir. Yalnız elə bu faktı qeyd edək ki, Elçinin qardaş Türkiyədə 18 kitabı nəşr olunmuşdur. Elçin alınının təri olan bütün zəhmətini 10 cildlik "Seçilmiş əsərləri"ndə cəmləşdirmişdir.

O, görkəmli ictimai və dövlət xadimidir, bu gün ədə bi-mədəni mühitin formalaşmasında böyük rolu olan hör mətli və nüfuzlu şəxsiyyətlərdən biridir. Onun həm dövlət çilik lə, həm də bədii yaradıcılıqla bağlı fəaliyyəti bir-birini ahəngdar şəkildə tamamlayır.

Elçin hazırda yaradıcılığının ən dolğun çağını yaşayır və biz inanırıq ki, o, yeni-yeni əsərləri ilə ədəbiyyat xəzinəmizi daha da zənginləşdirəcəkdir.

**Bəybala ƏLƏSGƏROV,**
**tarix üzrə elmlər doktoru**

# "AtaHolding" Ümummilli Liderin 95 illik yubileyinə və Qələbənin 73 illiyinə həsr olunmuş tədbir keçirdi

"AtaHolding" Bilgəh Qocalar evinin sakinləri üçün ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə və Faşizm üzərində Qələbənin 73 illiyinə həsr olunmuş tədbir keçirdi.

Tədbirin açılışında Qocalar evinin rəhbəri Qətibə Əsədova "AtaHolding"in rəhbərliyinə və kollektivinə gözəl tədbir təşkil etdiklərinə görə dərin təşəkkürünü bildirdi və qeyd etdi ki, müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə və Faşizm üzərində Qələbənin 73 illiyinə həsr olunmuş bu tədbir çox əlamətdardır. Qətibə xanım qeyd etdi ki, bir-birinin ardınca gələn bu əlamətdar günlərin ölkə səviyyəsində qeyd edilməsi milli və bəşəri dəyərlərə dövlət rəhbərliyi tərəfindən böyük önəm verilməsinin bariz nümunəsidir.

"AtaHolding"in Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova isə bildirdi ki, Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin xatirəsini həmişə uca tutur, çünki O, istər hakimiyyətinin birinci dövründə, istərsə də müstəqilliyin ilk illərində ölkə rəhbərliyinə qayıtmaqla Azərbaycanın gələcək uğurlarını təmin etmişdir: "Xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan ulu öndər daxili çaxnaşmalar, vətəndaş müharibəsi, səfalət, ictimai-siyasi və iqtisadi böhran məngənəsində boğulan, yox olmaq təhlükəsi ilə üzləşən ölkəni xilas etdi, onun müəllifi olduğu dövlət quruculuğu strategiyası Azərbaycanın hərtərəfli, sabit və dönməz inkişafının, müstəqilliyinin qarantına çevrildi". Faşizm üzərində qələbənin dünya xalqlarını, o cümlədən, Azərbaycanı o vaxtkı dəhşətli müharibə və məhrumiyyətlərdən xilas etdiyini xatırladan D.Zamanova diqqətə çatdırdı ki, faşizm üzərində qələbə çalmaqla dünyanın xilas edilməsində Azərbaycanın da mühüm rolu olub. Belə ki, müharibə vaxtı sovet ordusunun neft təchizatının 70 faizi məhz Bakının payına düşüb, 600 mindən çox azərbaycanlı cəbhədə düşmənə qarşı vuruşub, onlardan 300 mini həlak olub. Tədbirdə saksofon ifa edən Fərid Ağayev bu əlamətdar günlərə həsr olunmuş tədbirin Qocalar evinin sakinləri üçün yaddaqalan olduğunu qeyd etdi. Bilgəh Qocalar evində təşkil edilmiş tədbirdə çay süfrəsi arxasında Qocalar evinin sakinləri konsert proqramını izlədilər. Tədbirdə saksofonist Fərid Ağayevin və səs rejissoru Rasim Məmmədovun müşayiəti ilə müğənnilər Həyat Həsənzadə, Sübhan Aşurov, Orxan Bağırov, sintezator ifaçısı Etibar Abdullayev gözəl konsert proqramı ilə çıxış etdilər. Qocalar evinin sakinləri onlar üçün təşkil edilən əyləncəli proqrama görə təşəkkürlərini bildirdilər, musiqi sədaları altında həvəslə rəqs etdilər. Tədbirdə sakinlər özləri də mahnı ifa etdilər və şeirlərlə çıxış etdilər.

"AtaHolding" əməkdaşlarından Valeh Babayev, Fərid Malikzadə, Nigar Novruzova, Şərqiyyə Ağayeva və "Bizim Yol" qəzetindən Gülnarə Məmmədova təşkilati işlərdə fəal iştirak etdilər.






# Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun** Azərbaycan Milli Mətbuatının 143-cü ildönümü münasibətilə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsi elan edildi.

Müsabiqənin məqsədi Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, mövcud resurslardan səmərəli istifadə olunması və elektrik enerjisinə artan tələbatın ödənilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar reallaşdırılan tədbirlərin, habelə ölkənin sosial-iqtisadi inkişafında elektrik enerjisinin yeri və rolunun ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

Mövzusu "Azərenerji" ASC: tarixi inkişaf yolu və strateji hədəflərə doğru" olan müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbul qaydaları ilə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.

Yazıların qəbulu 10 may 2018-ci il tarixində başlayır, 10 iyul 2018-ci il tarixində başa çatır.

**Qiymətləndirmə meyarları:**

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;
- ictimai maraqların müdafiəsi.

**Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması:**

Müsabiqədə,
I yer üçün 1 nəfər (1000 manat);
II yer üçün 2 nəfər (800 manat);
III yer üçün 3 nəfər (600 manat)
yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur. Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 300 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

# "AppLab" iştirakçıları "Golden Byte 2018" müsabiqəsinin regional finalında qalib gəldilər




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkətinin "AppLab" inkubasiya proqramının iki iştirakçısı "Golden Byte 2018" müsabiqəsinin regional finalında qalib olub.

Layihələrin qiymətləndirilməsi nəticəsində "AppLab" proqramında iştirak edən iki komanda yerli çempionatın "Startap" nominasiyasında I və II yerlərə sahib olublar. I yeri tutmuş "Run2Help" layihəsi istifadəçinin gün ərzində atdığı addımları sayıb onları pul vəsaitinə çevirən və qazanılmış məbləği xeyriyyə məqsədilə ianə etmək imkanı verən mobil əlavədir. Bu layihənin komandası 19-20 may tarixlərində Ukraynanın Kiyev şəhərində baş tutacaq "Golden Byte 2018" finalında iştirak edəcək. Regional finalın II yerini isə xüsusi tətbiqetmə vasitəsilə müxtəlif məkanlarda tədbir təşkil edib, dost-tanışları dəvət etmək imkanını verən "BuilDay" lahiyəsi tutub.

Qeyd edək ki, Beynəlxalq "Golden Byte" İT çempionatı regional seçim və regional final mərhələlərdən ibarətdir və 10 ölkədən 10 min nəfərdən çox iştirakçını bir araya gətirir. "Step IT Academy" tərəfindən Azərbaycanda təşkil olunan regional final mərhələsi may ayının 4-də keçirilib. İki yarımfinal mərhələsindən keçmiş layihələr yerli və beynəlxalq şirkətlərin nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib. Beynəlxalq "Golden Byte" İT çempionatı 2008-ci ildə "Step IT Academy" tərəfindən təsis edilib.

Bu ilki regional "Golden Byte"finalının baş sponsoru "AzerTelecom" şirkətidir.

Xatırladaq ki, "AppLab" layihəsinin iştirakçıları şirkətin "AppLab" Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim imkanları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər.

İnnovasiya sahəsində lider olan Bakcell gənc nəslin nümayəndələrinə inkişaf imkanları, məsləhətlər və hətta innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan dəstəyi göstərməyə hazırdır.

# Ayağınızı yerdən götürəcək kredit




AtaBank müştərilərinə yeni "Avtomobil" kreditini təqdim edir. Artıq çox qısa müddətdə, əlverişli şərtlərlə arzuladığınız avtomobilə sahib ola bilərsiniz. Ayağınızı yerdən götürə bilmək üçün təklif edilən krediti AtaBank-ın istənilən filialından əldə etmək mümkündür.

Xatırladaq ki, "AtaBank"-ın digər çox sərfəli Klassik, Lombard və Ekspress kredit məhsulları da mövcuddur.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında 31 filial və şöbəsi vasitəsilə korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Bakcell universitet məzunları və tələbələr üçün yay təcrübə proqramı elan edir

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell böyük məmnuniyyətlə III və IV kurs bakalavr tələbələrini, magistrləri və yeni məzunları şirkətin "2018 Yay Təcrübə Proqramı"nda iştirak etməyə dəvət edir.

Tələbə və məzunlar üçün nəzərdə tutulmuş 2 aylıq proqramın əsas məqsədi karyerasında ilk addımlarını atmağa başlayan gəncləri Azərbaycanın ən nüfuzlu və innovativ şirkətlərindən birində iş mühiti ilə tanış etmək, praktiki biliklərlə təmin etmək və onların işə hazırlıq bacarıqlarını inkişaf etdirməkdir.

Seçimdən uğurla keçən namizədlər "Bakcell"in satış və marketinq şöbələrində 2 ay müddətində təcrübə keçmək imkanına malik olacaqlar. Təcrübə müddətində gənclər şirkətin aparıcı mütəxəssisləri arasından seçilmiş təcrübə rəhbərləri vasitəsilə müvafiq bilik və bacarıqlara yiyələnərək şirkətin ümumi strukturunu və iş prinsiplərini öyrənəcək, eyni zamanda, karyera planlaşdırılması, biznes etikası, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə, əməyin təhlükəsizliyi və ətraf mühit, sağlamlıq və digər mövzularda praktiki biliklər əldə edəcəklər. Təcrübə proqramı başa çatdıqda bütün iştirakçılar qiymətləniriləcək və layihədə iştirak etdiklərini təsdiq edən sənədlə təltif olunacaqlar.

Bakcell şirkətinin "2018 Yay Təcrübə Proqramı" barədə daha ətraflı məlumatı www.bakcell.com səhifəsində əldə etmək olar. Proqramda iştirak etmək üçün müraciətlər (CV) 31 may 2018-ci il tarixinə qədər internship@bakcell.com ünvanı vasitəsilə qəbul olunacaq.

Qeyd edək ki, 2014-cü ildən etibarən Bakcell şirkətinin təcrübə proqramlarında 100 nəfərdən çox gənc iştirak edib. Proqramda iştirak zamanı yüksək nəticələr nümayiş etdirən tələbə və məzunlar Bakcell şirkəti və digər nüfuzlu şirkətlər tərəfindən işlə təmin edilib. Digər iştirakçılar isə yerli və xarici universitetlərdə təhsillərini davam etdirirlər.

Azərbaycanın ən prestijli işəgötürənlərdən biri olan Bakcell şirkəti bütün işçilər və namizədlər üçün eyni şərait yaradır. Şirkət işə qəbul və seçim prosesində şəffaflıq prinsiplərinə riayət edir.

# Azercell Eksklüziv mağazalarında Lenovo planşeti al – hədiyyələr qazan!




Azercell-dən planşet, limitsiz internet və üstəgəl premium aksessuar əldə etmək istəyənlər üçün yeni sərfəli kampaniyaya start verilib. Belə ki, kampaniya çərçivəsində məhz Azercell Eksklüziv Mağazalarında Lenovo markalı planşeti alan hər bir müştəri 6 ay müddətinə Limitsiz İnternet paketini cəmi 15 AZN qiymətinə əldə etmək imkanından faydalanacaq. Üstəlik, hər bir kampaniya iştirakçısına 1 ədəd Azercell Premium aksessuar hədiyyə təqdim olunur. Kampaniyada təqdim olunan Lenovo planşet modelləri:

- Lenovo TAB3 710L 16GB – 206 AZN
- Lenovo TAB4 7304 16GB – 209 AZN
- Lenovo YTAB3 850 16GB – 359 AZN
- Lenovo YTAB3 X50 16GB – 499 AZN

Onu da bildirək ki, kampaniya planşetlərinə Azercell-in rəsmi tərəfdaşı və Lenovo-nun Azərbaycanda rəsmi distributoru Inteqral şirkəti tərəfindən 1 il zəmanət təqdim olunur. Kampaniyada yalnız Azercell Eksklüziv mağazalarında Lenovo planşetləri əldə edən abunəçilər iştirak edə bilər.Qeyd edək ki, Azercell-in Eksklüziv mağazaları Bakı (Bülbül pr., 5, Qara Qarayev prospekti, ev 30\42, mənzil 52), Xırdalan (Heydər Əliyev pr. Mehdi Hüseyin küç. 54), Mərdəkan (Mərdəkan qəs., S.Yesenin küç., 92/2, m.30), Xaçmaz (Nəriman Nərimanov küç., 40), Quba (Heydər Əliyev prospekti, 194 və Qələbə küçəsi, 12) və Sumqayıtda (11-ci mk-rn, Koroğlu və Üzeyir Hacıbəyov küçələrinin kəsişməsi) abunəçilərin ixtiyarına verilib.

Azercell bütün abunəçilərini bu sərfəli və eksklüziv kampaniyadan yararlanmağa dəvət edir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**